QARABAĞ AZƏRBAYCANDIR!

## "Bütün bunlardan sonra Fransa sülh danışıqlarında iştirak edə bilməz!"




3

SƏS
№ 218 (6659) 29 noyabr 2022-ci il. Qiymətı 60 qəpik



## Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir



4

# Ermənistan müharibə seçmək məcburiyyətindədir

## Yaxud yada düşən Hindistan-Ermənistan "qardaşlığı"



5

## Əhməd İsmayılov xarici jurnalistlərlə görüşüb



7

## Saakaşvilinin bədənində arsen tapılıb?



10

## Tolerantlıq mühiti: dövlət-din konsepsiyası



7

## Mənzil alqı-satqısı ilə bağlı bu yeniliklər tətbiq olunacaq!



## Moped idarə etmək üçün sürücülük vəsiqəsi tələb olunacaq



12

# ABŞ Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesini daim diqqətdə saxlayır

## Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikeri qəbul edib. Filip Riker ABŞ dövlət katibi Antoni Blinkenin salamlarını Prezident İlham Əliyevə çatdırıb.**



Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Antoni Blinkenə çatdırmağı xahiş edib. Görüşdə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqların aparılması ilə bağlı xarici işlər nazirləri səviyyəsində Vaşinqtonda keçirilmiş görüş ətrafında fikir mübadiləsi aparılıb.

ABŞ dövlət katibi Antoni Blinkenin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesini daim diqqətdə saxlaması yüksək qiymətləndirilib.

# "Rusiya ilə Azərbaycan arasında turist axınını pandemiyayaqədərki səviyyəyə çıxarmaq zəruridir"

**Bu günlərdə Bakıda Rusiya-Azərbaycan əməkdaşlığı üzrə Parlamentlərarası komissiyanın iclası keçirilib. Rusiya nümayəndə heyəti üzvlərindən biri, Dövlət Dumasının deputatı Dmitri Savelyev bu işçi səfərlə bağlı öz təəssüratlarını AZƏRTAC-la bölüşüb.**

***-Dmitri İvanoviç, Rusiya-Azərbaycan əlaqələri son dövrlərdə ən müxtəlif səviyyələrdə aktivləşib. Bu, nə ilə bağlıdır?***




-Ölkələrimiz arasında dövlətlərarası əlaqələr həmişə yüksəkdə olub, lakin cari ilin fevralında Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzalanandan sonra bu əlaqələr yeni müstəviyə çıxdı və yeni məna ilə zənginləşdi. Azərbaycan infrastrukturu və iqtisadiyyatı Rusiya ilə sıx bağlıdır. İqtisadi inkişaf, vahid mədəniyyət və təhsil məkanının qorunub saxlanması birbaşa bundan asılıdır. İndi Rusiyaya qarşı sanksiyalar təbiq edilməsi fonunda Rusiya-Azərbaycan əlaqələrinin intensivliyində müntəzəm artım müşahidə olunur. Dövlət Dumasının sədri Vyaçeslav Volodin bu yaxınlarda Bakıda işgüzar səfərdə olub, parlament nümayəndə heyətinin gəlişi ərəfəsində XI Rusiya-Azərbaycan regionlararası forum keçirilib. Forumun işində Rusiya Federasiyasının Baş naziri Mixail Mişustin iştirak edib. Ölkələrimiz arasında xeyli işçi məsələlər toplanıb ki, onların həllini intensivləşdirmək, o cümlədən ölkələrimizin qanunvericilik orqanları tərəfindən dəstəkləmək lazımdır. Bütün bunlar barədə Parlamentlərarası komissiyanın iclasında söhbət açılıb, həmçinin komissiyanın gələn il üçün iş planı təsdiqlənib.

***-Komissiyanın iclasında hansı məsələlər müzakirə olunub?***

-Həmkarlar öz çıxışlarında qeyd ediblər ki, 2021-ci ilin yekunlarına əsasən ölkələrimiz arasında əmtəə dövriyyəsi 12 faiz artıb, cari ilin 10 ayı ərzində isə bu göstərici artıq 20 faiz yüksələrək 3 milyard dollara çatıb. Əmtəə dövriyyəsinin artımı bir çox hallarda yüklərin yerdəyişməsinin sərbəstliyindən və onların nəqlinin sürətindən asılıdır. Özü də Rusiya və Azərbaycanın Avrasiya və Xəzər regionunun mərkəzində əlverişli yerləşməsi bizim dövlətlərimizə nəqliyyat və tranzit potensialını fəal inkişaf etdirmək imkanı verir. Bununla əlaqədar, yüklərin sərhəddən keçirilməsini maksimum optimallaşdırmaqdan ötrü sərhəd-keçid məntəqələri ilə bağlı vəziyyət parlament nəzarətinə götürülməlidir.

Mən çıxışımı Azərbaycanın Rusiya regionları ilə turist mübadiləsi və nəqliyyat əlaqələri məsələsinə həsr etmişdim. Ölkələrimiz arasında turist axınını pandemiyayaqədərki səviyyəyə çıxarmaq zəruridir.

O, artıq cari ildə təqribən 80 faiz artıb, lakin bu, heç də son hədd deyil. Pandemiya səbəbindən turizm həddən artıq sıxıntı vəziyyətinə düşdü və hazırda Azərbaycan Rusiyadakı turizm nümayəndəliyində işini artırmağı planlaşdırır. Yeni il tətilləri ərəfəsində artıq rusiyalı turistlərin Azərbaycanın dağ-xizək kurortlarına dəvəti üzrə reklam kampaniyasına start verilib. Hər həftə Rusiya və Azərbaycanın şəhərləri arasında 130-dan çox aviareys həyata keçirilir və bu göstərici getdikcə yalnız artacaq.

***-Siz bu yaxınlarda keçirilən XI regionlararası forum nöqteyi-nəzərindən Rusiya-Azərbaycan horizontal iqtisadi əlaqələrinin səviyyəsinin necə dəyərləndirirsiniz?***

-Praktik olaraq, Rusiyanın hər bir regionu Azərbaycanla əsas istiqamətlər üzrə əlaqələrin genişlənməsində maraqlıdır, bir çox regionlar üçün isə bu əlaqələr sənaye, nəqliyyat, gəmiqayırma və aqrar sahələri kimi infrastruktur layihələrinin formalaşdırılmasında əsas amilə çevriləcək. Öz növbəsində, 900-dən artıq birgə müəssisənin uğurla işlədiyi Azərbaycan neft-kimya layihələrində və müxtəlif yığma istehsalat sahələrinin yaradılmasında maraqlıdır. Regional səviyyədə ticari-iqtisadi qarşılıqlı fəaliyyət iqtisadiyyat sahəsində ikitərəfli əməkdaşlığın inkişafının təməli olmaqla bərabər, həm də siyasi və mədəni dialoqun qurulması üçün əsasdır. Burada ortaq dil məkanı mühüm rol oynayır, axı Azərbaycan postsovet məkanının az ölkələrindən biridir ki, burada rus dili qorunub saxlanılır və dövlət səviyyəsində inkişaf edir. Bunun ən yaxşı təsdiqi rus dilinin tədris edildiyi yüzlərlə məktəbdir, bu məktəbləri bitirən gənc azərbaycanlıların çoxu artıq Rusiyada ali təhsil alır. Bizim ölkəmizdə 11 min azərbaycanlı tələbə təhsil alır, bu isə eyni dildə danışan insanların iqtisadi əlaqələri daha səmərəli olmasının rəhnidir.

***-Səfəriniz zamanı Bakının hansı yerlərində olmusunuz?***

-Federasiya Şurasının vitse-spikeri Qalina Karelovanın rəhbərlik etdiyi nümayəndə heyəti Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib, Heydər Əliyev Mərkəzində olub. Mən görkəmli siyasətçinin şəxsiyyətinin böyüklüyünü və müstəqil Azərbaycanın təşəkkülü üçün onun şəxsiyyətinin mahiyyətini artıq dəfələrlə hiss etmişəm. 2023-cü il respublikada "Heydər Əliyev İli" elan olunub, bizim Dövlət Dumasında Azərbaycanın Ümummilli Liderinin anadan olmasının 100 illiyi ilə əlaqədar sərginin keçirilməsi planlaşdırılır. Ekskursiya zamanı bizim nümayəndə heyəti şəhərin ən yüksək nöqtəsindən Bakının mənzərəsini seyr edib. Fikrimcə, Azərbaycan paytaxtında yaradıcı işlərin vüsəti oradan daha yaxşı nəzərə çarpır.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

Qeyd edilir ki, bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin. Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Vüqar Əliyevin Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Vüqar Əliheydər oğlu Əliyev Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri təyin edilsin.



## Ərəb mediası yazır: "Azərbaycan Prezidenti Ərəb Liqasına üzv dövlətlərlə əməkdaşlığı prioritet vəzifə elan edib"

Ərəb mediası Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetində "Orta dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat mövzusunda keçirilən konfransdakı çıxışında Ərəb Dövlətləri Liqasına üzv olan dövlətlərlə əlaqələrin inkişafına dair fikirlərinə geniş yer ayırır.

AZƏRTAC xəbər verir ki, akademik Mərvan Musa Suda və iordaniyalı rus əsilli jurnalist Yelena Neduqinanın "Acnadeyin", "Əl Hərir", "Yeni dünya xəbərləri", "Səma" portallarında yayımlanan məqalələrində Prezident İlham Əliyevin Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Ərəb Dövlətləri Liqasına üzv olan dövlətlərə təşəkkür etdiyi qeyd olunub. Yazılarda diqqətə çatdırılıb ki, dövlət başçısı işğal dövründə və ərazilər azad olunduqdan sonra Azərbaycanı dəstəkləyən və Ermənistanın işğalçı siyasətini pisləyən bir sıra qətnamələrin qəbul edildiyini bildirib. O əlavə edib ki, rəsmi Bakı İslam Əməkdaşlıq Təşkilatının üzvləri arasında həmrəyliyin gücləndirilməsi üzrə fəal işləyir, bir neçə beynəlxalq tədbir keçirib. Azərbaycan pandemiya dövründə Ərəb Dövlətləri Liqası və İslam Əməkdaşlıq Təşkilatının üzvləri də daxil olmaqla, dünyanın 80-dən çox ölkəsinə maliyyə və humanitar yardım göstərib. Prezident İlham Əliyev, həmçinin Ərəb Sammitində iştirakını ərəb dövlətləri ilə sıx əlaqələrin bariz nümunəsi kimi səciyyələndirib.

Məqalələrdə, həmçinin Azərbaycanın İsraildə səfirlik və Fələstində Təmsilçilik Ofisinin açılması qərarı və Prezident İlham Əliyevin bununla bağlı sərəncamları da rəsmi Bakının Yaxın Şərq siyasətinin növbəti uğuru kimi qiymətləndirilib. Müəlliflər diqqətə çatdırıblar ki, fələstinli politoloq və yazıçı Əbdül Həmid Siam "Əl Qüds Əl Ərəbi" qəzetindəki analitik məqaləsində Fələstin probleminin həlli prosesinin Azərbaycanın uğurla sədrlik etdiyi Qoşulmama Hərəkatı çərçivəsində sürətlənəcəyini vurğulayıb.

# "Bütün bunlardan sonra Fransa sülh danışıqlarında iştirak edə bilməz!"

## Dünyanın aparıcı KİV-lərində Azərbaycan Prezidentinin ADA Universitetindəki konfransda səsləndirdiyi fikirləri geniş işıqlandırılıb

**Ərəb ölkələrinin nüfuzlu media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetində "Orta dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat mövzusunda keçirilən konfransdakı çıxışında İsraildə səfirlik və Fələstində Təmsilçilik Ofisinin açılması barədə fikirlərini əsas xəbər olaraq yayımlayıb.**

Belə ki, Fələstinin "Səma", Birləşmiş Ərəb Əmirliklərinin "Emarat", Livanın "Əl Nəşra", Misirin "Dar əl Hilal" və sair qəzet və portallarında yayımlanan materiallarda Prezident İlham Əliyevin bu diplomatik addımların ölkənin milli maraqlarına əsaslanması barədə sözləri yer alıb. Oxuculların diqqətinə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı bu qərarın sülhün möhkəmlənməsi işinə və bu dövlətlərdə uzunmüddətli, səmərəli əməkdaşlığa xidmət edəcəyini qeyd edib.





Ərəb KİV-lərinin xəbərlərində o da vurğulanıb ki, Prezident İlham Əliyev Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanı daim dəstəklədiklərinə görə Ərəb Dövlətləri Liqasının üzvlərinə təşəkkürünü bildirib.



Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxışı Böyük Britaniya mediasının diqqətində olub. Britaniyanın "Reuters", "Yahoo News UK" və "MSN" xəbər portallarında dövlətimizin başçısının çıxışından əsas məqamlara yer ayrılıb.



Oxucuların diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyev Praqa görüşündən az sonra Fransa Prezidenti Emmanuel Makronun müsahibəsində Azərbaycanı tənqid etməsini, ölkəmizə qarşı əsassız ittihamlarla çıxış etməsini, bundan bir qədər sonra bu ölkənin Senatı tərəfindən məlum qətnamənin qəbul olunmasını və Frankofoniya Sammitində Azərbaycana qarşı hücum cəhdini qəbuledilməz hesab edib. Dövlətimizin başçısına istinadla vurğulanıb ki, bütün bunlardan sonra Fransa sülh danışıqlarında iştirak edə bilməz və bu, həmin ölkənin rəhbərliyinin günahıdır.





Reuters agentliyi bildirib ki, Azərbaycan Prezidenti dekabrın 7-də Brüsseldə Ermənistanla keçirilməsi planlaşdırılan görüşün baş tutmayacağını və rəsmi Bakının digər variantları nəzərdən keçirəcəyini bildirib. Prezident İlham Əliyevə istinadla qeyd edilib ki, Ermənistanın baş naziri Paşinyanın həmin görüşdə E.Makronun iştirak etməsi şərtini irəli sürməsi sülh danışıqlarını pozmaq cəhdidir.





Həmçinin məqalədə beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınan, lakin erməni separatçıları tərəfindən zəbt olunan Qarabağın 2020-ci ilin sentyabr ayında başlayan müharibədən sonra Azərbaycanın nəzarətinə keçdiyi qeyd olunub.

Rumıniyanın və Bolqarıstanın qabaqcıl kütləvi informasiya vasitələrində Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 25-də Bakıda, ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransda səsləndirdiyi dərin məzmunlu fikirlər geniş şəkildə işıqlandırılıb.



Belə ki, dövlətimizin başçısının konfransda toxunduğu müxtəlif məqamlar "News24hours", "Trud", "Actualno", "Standard", "Fotograf.ro" və digər KİV-lərdə diqqət mərkəzində olub. Müxtəlif sərlövhələrlə dərc olunan məqalələrdə Prezident İlham Əliyevin fikirlərinə istinadla Zəngəzur dəhlizi, Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaş münasibətləri, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın sülh naminə göstərdiyi səylər, Fransanın erməniyönümlü, qərəzli mövqeyi və digər mövzulara yer ayrılıb.

# Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir

## İLHAM ƏLİYEV: "Qarabağ münaqişəsi həll olunub, bu, bizim ərazimizdir, hamı tərəfindən tanınır və bizim daxili işimizdir"



2020-ci il 10 noyabr üçtərəfli bəyanatla Azərbaycan Prezidenti İlham Əliyev yenə də diktə edən tərəfdir. Azərbaycan Prezidenti haqlı olaraq dəfələrlə bəyan edir ki, mövcud durumda situasiyanı Azərbaycan müəyyənləşdirir. Çünki bu gün şərtləri qalib ölkənin qalib Lideri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev diktə edir: Paşinyan rejiminə güzəşt yoxdur. İllərdir sülh istəyən, humanist siyasət aparan Azərbaycanla artıq kimsə diktə dili ilə danışa bilməz. Çünki Azərbaycan hər zaman sülhün tərəfdarı olduğunu dünyaya bəyan edib. Ermənistan isə status-kvonun saxlanması üçün müxtəlif bəhanələr gətirib danışıqlar masasına oturmurdu. İndi Paşinyan danışıq aparmaq üçün açıq-aşkar yalvarır. Ancaq Azərbaycan Prezidenti onunla nəinki bir masada oturmaq, heç danışıq aparmaq belə istəmir. Çünki danışıqlara Paşinyanın "Qarabağ Ermənistanındır" sərsəm fikrindən sonra xitam verilib.Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutmuş Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin Moskva görüşü nəticəsində 10 oktyabr 2020-ci il tarixi saat 12.00-dan etibarən humanitar atəşkəsə riayət olunması razılığının əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılığı kobud şəkildə pozmaqla bir daha riyakarlığını nümayiş etdirdisə, Azərbaycan dövləti də haqq yolunda, Vətən yolunda mübarizə apardığını, erməni hiyləsinin, riyakarlığını, normal dövlət ola bilməməsini bir daha dünyaya nümayiş etdirdi. Bununla bir daha sübut olundu ki, humanitar məqsədə xidmət edən atəşkəslə yanaşı, ehtiyat tədbirləri də paralel aparılmalıdır. Artıq atəşkəs danışıqlarında, digər ikitərəfli, çoxtərəfli platformalarda şərtləri məhz Azərbaycan müəyyən edir. Bu, o deməkdir ki, Azərbaycana qarşı hər hansı şərtlərin irəli sürülməsindən söhbət gedə bilməz və atəşkəs istəyən tərəf beynəlxalq hüquq normalarına əməl etməlidir. Bu sadə gerçəkliyi artıq hamı başa düşməlidir. Paşinyan başa düşməlidir ki, monoetnik Ermənistandan fərqli olaraq, multikultural dəyərlərə, tolerantlığa və hər bir xalqın milli-mədəni irsinə hörmət prinsiplərinə sadiqdir. Prezident və Ali Baş Komandan İlham Əliyev Şuşadan regiona və dünyaya etdiyi çağırışları bir daha onu sübut edir ki, Azərbaycan Prezidenti rəhbəri olduğu ölkə bölgənin təhlükəsizliyi, sabitliyi və inkişafı üçün sülhə hazır olmaqla bərabər, həm də sülhün təminatçısı kimi çıxış etmək iqtidarındadır. 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi bunun təsdiqidir.

### BİZ HEÇ BİR ÖLKƏ İLƏ, HEÇ BİR BEYNƏLXALQ QURUMLA QARABAĞDAN DANIŞMAQ FİKRİNDƏ DEYİLİK

Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlərŞəxsi keyfiyyətləri, siyasi uzaqgörənliyi və reallığa uyğun çevik qərarlar qəbuletmə bacarığı sayəsində cəmiyyətin bütün zümrələrini ətrafında birləşdirən Prezident İlham Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində də xalqın böyük dəstəyini qazanmış və Azərbaycanın siyasi və beynəlxalq arenada mövqelərinin daha da möhkəmlənməsinə və bir sıra vacib sahələrdə mühüm uğurlara imza atmasına nail olmuşdur. Dövlət başçısı bütün çıxışlarında, görüşlərində dönə-dönə vurğulayıb ki, bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Ən vacib məqam isə xalqımızın 30 illik yurd həsrətində olan xalqımız Ali Baş Komandanımızın "Dəmir yumruq" siyasəti ilə 44 gün ərzində Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı ilə "Qarabağ Azərbaycandır"mıza qovuşdu. Dövlət başçısı bütün çıxışlarında, görüşlərində lönədönə vurğulayıb ki, bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda iştirakçıların suallarını cavablandıran Prezident İlham Əliyev bir daha bu mövzuya toxunaraq deyib: "İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda müəyyən illüziya yaranıb ki, onlar bizimlə Qarabağla bağlı danışmağa davam edəcəklər. Biz əvvəldən demişdik ki, bu, qətiyyən mümkün deyil. Biz heç bir ölkə ilə, heç bir beynəlxalq qurumla Qarabağdan danışmaq fikrində deyilik. Qarabağ münaqişəsi həll olunub, bu, bizim ərazimizdir, hamı tərəfindən tanınır və bizim daxili işimizdir".

### BELƏ BİR ŞƏRAİTDƏ FRANSA AZƏRBAYCAN VƏ ERMƏNİSTAN ARASINDA SÜLH DANIŞIQLARINDA İŞTİRAK EDƏ BİLMƏZ

Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyi aydın və dəqiqdir. Bu məsələdə Azərbaycanın mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır, sülhün əldə olunmasına xidmət edir. Lakin üzərinə götürdüyü öhdəliklərə və üçtərəfli görüşlərdəki razılaşmalara rəğmən Ermənistan normallaşma prosesinə və bölgədə sülhün bərqərar olması səylərinə maneçilik törədir. Ermənistana pozuculuq fəaliyyətində əsas dəstək verən isə Fransadır.

Qeyd edək ki, oktyabrın 6-da keçirilən Praqa görüşü və Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması ölkəmizin Vətən müharibəsindən sonra növbəti diplomatik qələbəsi oldu. Lakin görünən odur ki, Fransa Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması ilə razılaşmaq istəmir. Çünki Fransa Prezidentinin Praqa görüşündən 6 gün sonra verdiyi müsahibəni başqa cür şərh etmək mümkün deyil. Fransa Senatının və Milli Assambleyasının təxribatçı addımları isə yalnız vəziyyətin gərginləşməsinə xidmət edir, sülh gündəliyinin həyata keçirilməsinə, iki ölkə arasında münasibətlərin normallaşmasına zərbə vurur. Bütün bunlar bir daha təsdiq edir ki, Fransanın Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində hansısa formada iştirakı, ümumiyyətlə, mümkün deyil. Noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda Praqa görüşündən sonra Fransanın təxribatlarını diqqətə çatdıran Prezident İlham Əliyev bəyan etdi ki, belə bir şəraitdə Fransa Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında iştirak edə bilməz: "Onları bu formatdan kənarlaşdıran biz yox, özləri oldu. Çünki nə Rusiya, nə də Amerika, keçmiş Minsk qrupunun hansısa həmsədri heç vaxt rəsmən, yəni müharibədən sonrakı dövrdə tərəf tutmayıb, yalnız Fransa tutub. Deməli, bu o deməkdir ki, dekabrın 7-də Brüssel görüşü baş tutmayacaq və baxaq görək, hansı alternativimiz olacaq, vasitəçi kim olacaq, platforma harada olacaq. Mən Ermənistanın baş nazirinin bu qərarını sülh prosesini pozmaq cəhdi hesab edirəm, çünki onlar təsəvvür edə bilərdilər ki, biz buna qarşı olacağıq". Azərbaycan Vətən müharibəsindəki yeni reallıqlar müstəvisində maraqlarını qətiyyətlə təmin edir və bu günə kimi keçirilmiş görüşlərin məntiqi sonluğu sülh sazişi olmalıdır. Bu prosesdə isə ermənilərin Qarabağla bağlı iddialarına yer yoxdur və bu mənada sülh prosesinin pozulması Ermənistana baha başa gələcək.

### AZƏRBAYCAN İNDİYƏ KİMİ NƏYİ DİKTƏ EDİBSƏ, O İCRA EDİLİB, ÖHDƏLİKLƏRDƏN QAÇMAQ MÜMKÜN DEYİL

Bəli, bu gün qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir. Belə olan halda Ermənistan ağıllarını başlarına yığıb bilməlidirlər ki, Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil. Şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Daha dəqiq desək, "Dəmir Yumruğ"un növbəti zərbəsi ilə qarşılaşacaqlar. Dövlət İlham Əliyevin söylədiyi kimi, 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabların xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, daha da bütövləşdik, daha da mətinləşdik, daha da güclləndik, özümüzü topardıq və sonunda Zəfər bizim oldu. Bəli, üçtərəfli bəyanatın imzalanması ilə münaqişənin hərbi mərhələsi başa çatdı. Ağdam, Laçın, Kəlbəcər rayonları qan tökülmədən qaytarıldı, status-kvo, "Dağlıq Qarabağ" adlı ərazi vahidi ləğv edildi. Və bələliklə, bu qələbənin nümayişi 10 dekabr 2020-ci ildə keçirilən Zəfər Paradında bir daha dünyaya göstərildi. Bu Paradla Qarabağ Azərbaycandır! nidasının təntənəsi, "Dağlıq Qarabağın" statusunun olmayacağının Azadlıq meydanında nümayişi, işğalçı Ermənistanın yeni erməni dövlətinin yaradılması planlarının üstündən birdəfəlik xətt çəkməsinin nümayişi idi. Çünki bu gün regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yaranıb, ərazi bütövlüyümüz təmin olunub və heç bir statusdan söhbət gedə bilməz! Bu isə Azərbaycanın tam və qeyd-şərtsiz qələbəsinin əyani sübutudur. Bütün bu söylənilənlərdən belə bir qənaətə gəlmək mümkündür ki, "Nə qədər mən Prezidentəm, heç bir statusdan söhbət gedə bilməz!" deyən dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev nəyi necə və nə zaman etməyi yaxşı bildiyini bir daha nümayiş etdirdi. Və "Ermənistanın hünəri varsa, tanısın "Dağlıq Qarabağ respublikası"nı. Ermənistan hakimiyyəti, tanıyın onu. Bu gün tanıyın, tanımırsınızsa, deməli qorxursunuz. Gedin, ağlınızı başınıza yığın!" - bu Azərbaycan Prezidentinin sözü, tələbidir! Prezident İlham Əliyev noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesindən də bəhs edərək bildirib ki, Ermənistan prosesə əngəl törədir. Belə ki, dövlətimizin başçısının dediyi kimi dekabrın 7-də Brüsseldə Ermənistanın baş naziri Nikol Paşinyan ilə nəzərdə tutulan görüş keçirilməyəcək. Buna səbəb isə Ermənistanın baş nazirinin həmin görüşə yalnız orada Fransa Prezidenti Emmanuel Makronun iştirak edəcəyi təqdirdə razılıq verəcəyini bildirməsidir. Bu isə o deməkdir ki, həmin görüş baş tutmayacaq. Çünki Praqa görüşündən bir neçə gün sonra Fransa Prezidenti Makron müsahibəsində Azərbaycana qarşı əsassız ittihamlar irəli sürdü və Ermənistana açıq-aşkar dəstək nümayiş etdirdi. Daha sonra Fransa Senatının ölkəmizə qarşı qəbul etdiyi əsassız qətnamə və digər faktlar Fransanın obyektiv vasitəçilik etmədiyini göstərir. Dövlətimizin başçısı Paşinyanın Brüssel görüşündə Makronun iştirak etməsi tələbini irəli sürməsini sülh danışıqlarını pozmaq cəhdi kimi qiymətləndirib. Belə olan halda, ermənilər anlamalıdırlar ki, sülh onların yeganə çıxış yoludur. Və bu gün havadarlarına arxalanaraq ölkəmizi təxribatlara çəkib növbəti müharibə ilə "hədələyən" revanşistlər anlamırlar ki, artıq Azərbaycan bütün gedişlərini kökündən dəyişib və bölgədə baş verən istənilən hadisəyə diqqət yetirir, hər şeyə nəzarət edir. İndi diktəni edən ölkə Azərbaycandır və bölgədə yenidən erməni faşizminin baş qaldırmasına heç vaxt imkan verməz. İstənilən qüvvənin Qarabağda Azərbaycan əsgərinə qarşı edəcəyi təxribat xarakterli əməl cavabsız qalmayacaq. Və bu gün Ali Baş Komandanın bəyanatlarına, sərt xəbərdarlıqlarına əhəmiyyət verməyən ermənilər indi qalib sərkərdənin hər bir fikrini, mesajını diqqətlə izləyir və ona uyğun nəticə çıxarırlar. Yaxşı anlayırlar ki, Prezident İlham Əliyevin dediyi söz imzası qədər keçərlidir. Görünən odur ki, Prezident İlham Əliyevin yürütdüyü diplomatiya nəticəsində müharibənin başa çatmasından sonra yaranan bu reallıqlar siyasi mərkəzlər tərəfindən qəbul edilir.

Bəli, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə status söhbətləri də birdəfəlik bağlandı. Ölkəmizin ərazisində yaşayan ermənilərin məsələsi isə Azərbaycanın öz daxili işidir. Noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda iştirakçıların suallarını cavablandıran Prezident İlham Əliyev bir daha bu mövzuya toxunaraq deyib: "İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda müəyyən illüziya yaranıb ki, onlar bizimlə Qarabağla bağlı danışmağa davam edəcəklər. Biz əvvəldən demişdik ki, bu, qətiyyən mümkün deyil. Biz heç bir ölkə ilə, heç bir beynəlxalq qurumla Qarabağdan danışmaq fikrində deyilik. Qarabağ münaqişəsi həll olunub, bu, bizim ərazimizdir, hamı tərəfindən tanınır və bizim daxili işimizdir". Göründüyü kimi, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyi aydın və dəqiqdir. Bu məsələdə Azərbaycanın mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır, sülhün əldə olunmasına xidmət edir. Bir sözlə, bütün bunlar Azərbaycanın dünyaya nə qədər sülhsevər bir ölkə olduğu bir daha nümayiş etdirir.

**RƏFİQƏ KAMALQIZI**



# Ermənistan

## müharibə seçmək məcburiyyətindədir

### Yaxud yada düşən Hindistan-Ermənistan "qardaşlığı"

***Kənardakı it daha çox hürər, bu, bir el məsəlidir. Hadisə yerində nələrin baş verdiyini bilməyən, sadəcə səslərin tonuna, avazına reaksiya verən it həm də qorxduğundan hürər. Bəzən düşünürsən, əcəba, biz Hindistana nə etmişik ki, bu ölkə bizə düşmən kəsilib, düşmənimizə əl tutur, düşmənimizin yanındadır, onu yemləyir, bəsləyir, arxasında durur, onu qızışdırır, Bizimlə müharibə aparmağa təhrik edir. Həmişə Hindistana rəğbətimiz olub, mədəni əlaqələrimiz daim yüksələn xətlər inkişaf edib. Sovet dönəmində başlanan əlaqələrimiz müstəqillik dövründə də pis olmayıb. Nə hinduslarla, nə də rəsmi Dehli ilə düşmənçilik həddinə çatacaq elə də bir fikir ayrılığımız olmayıb. Hələ Şurəvi dövründə çəkdikləri filmlərin pərəstikarları arasında Azərbaycan tamaşaçıları üstünlük təşkil edib, iqtisadi əlaqələrimiz də zəif olmayıb. Amma...***

"Əmma"sı da budur ki, Hindistan açıq şəkildə Azərbaycanla düşmən olduğunu bəyan edib. 44 günlük müharibədə ermənilərin dərsini verdik, torpaqlarımızı işğal edənlərin izini-tozunu buralardan silib atdıq. Əslində torpağını sevən hər kəs, suverenliyini, ərazi bütövlüyünü qotuyan hər bir dövlət məhz belə addım atardı ki, biz atdıq. İndi Ermənistan və ermənilər çəkilib qınına, müharibə zamanı aldığı dəmir yumruq zərbəsindən sonra hələ də başını sürtür, bir sözlə öz hayındadır. Hindistan isə erməniləri yeni müharibəyə hazırlamaqdadır. Bunun da bir səbəbi olduğunu belə əsaslandırırlar ki, sən demə... Bəli, bunu biz əvvəldən də deyirdik, amma kimsə bizə qulaq asmırdı, yalan danışdığımızı düşünürdülər. Qafqazda yaşayan xalqların kimliyi barədə faktlar "N" qədərdir. Yerli qafqazlılardan soruşsan gözüyumulu hər bir xalq haqqında ətraflı məlumat verər, özəl xüsusiyyətləri barədə gen-bol danışar. Amma həmin xalqlar arasında ermənilərin olmadığı da dəqiqdir. Ermənilər həmişə özlərini bu etnoslar, xalqlar arasına soxuşdurmağa can atıblar. Birinin musiqisini, digərinin geyimizi, o birisinin mətbəxini oğurlamaqla guya qafqazlı olduqlarını sübuta yetirməyə çalışırlar.

"Su axar, çuxurunu tapar", bu da el məsəlidir. Ermənistan və ermənilər də axıb özlərinin mənsubiyyəti barədə doğruları deməyə başlayıblar. Daha doğrusu buna məcbur qalıblar. Çünki qafqazlılardan heç bir kəs onların nə yalanına, nə də başqalarının torpaqlarına sahib çıxmaq istəklərinə dəstək verməyiblər. Yenə də ermənilərin dadına əcdadları gəlib, hindistan qaraçıları.



Bəli biz bir az yuxarıda bunu deməyə çalışırdıq. Hindistanın Ermənistan və ermənilər barədə dediklərini siz də oxusanız məhz bu hissləri keçirərsiniz.

"Biz Ermənistanla əməkdaşlığı daha da dərinləşdirməliyik". Bu barədə Hindistan Xarici İşlər Nazirliyinin Ermənistan Elmlər Akademiyasında Ermənistan və Hindistan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə keçirilən beynəlxalq konfransın iştirakçılarına müraciətində deyilir. Mesajda həmçinin qeyd olunur: "Ölkələr arasında münasibətlərin dərinləşməsi Hindistanın xarici işlər nazirinin 2021-ci ilin oktyabrında Ermənistana ilk səfəri ilə yadda qalıb. Ermənistan və Hindistan arasında əlaqələrin inkişafı və iki xalq arasında çoxəsrlik qarşılıqlı əlaqələrin dərinləşməsi üçün zəmin yaratmaq imkanı verir. Hindistanla qədim köklərə malik erməni mədəni irsini qorumalıyıq".

Soruşa bilərsiniz, kök-əcdad, etnik birliyin Azərbaycanla əlaqələrə nə dəxli? Burada da maraqlı nüanslar axtarmağa dəyər. Məlum olur ki, "Pakistanla Bakının əməkdaşlığı fonunda Hindistan İrəvanı müttəfiq kimi görür". Bunu Ermənistanın Hindistandakı ilk fövqəladə və səlahiyyətli səfiri Armen Bayburtyan deyib.

Onun sözlərinə görə, Hindistan Ermənistan üçün dost ölkədir və erməni icmasının Hindistanda 400 ildən artıq yaşadığını nəzərə alsaq, bu dostluq təkcə tarixi əlaqələr, etnik eyniliklə deyil, həm də qarşılıqlı, üst-üstə düşən siyasi, iqtisadi və strateji maraqlara əsaslanır. Bayburtyanın fikrincə, 1999-2000-ci illərdə iki ölkənin səfirliklərinin açılması, münasibətlərin bütün sahələrinə, o cümlədən siyasi, iqtisadi, hərbi, texniki və s. sahələrə yeni təkan verdi. O qeyd edib ki, bu gün ikitərəfli əlaqələr daha da yüksək səviyyəyə qalxıb: "Hərbi əməkdaşlıq haqqında çox danışılır. Bu, şübhəsiz ki, mühüm istiqamətdir və yaxın münasibətlərin inkişafının təzahürlərindən biridir ki, bu da bir neçə amillə bağlıdır. Birincisi, bunlar yaxın qarşılıqlı maraqlardır. Pakistan və Azərbaycan arasında, o cümlədən hərbi sahədə sıx qarşılıqlı fəaliyyət və əməkdaşlıq Hindistanın Ermənistanla münasibətləri inkişaf etdirmək istəyinə təsir göstərir. Ancaq bu amillərdən yalnız biridir. Ən mühüm amil Hindistanın dünyanın beşinci iqtisadiyyatına çevrilməsi, 10 ildə dünya siyasətinin əsas aktorlarından birinə çevrilməsidir. Nəzərə alsaq ki, Hindistan Ermənistanı təbii müttəfiq hesab edir, bu o deməkdir ki, Nyu-Dehlinin dünyada nüfuzunun artması ilə paralel olaraq Ermənistanla da münasibətlər möhkəmlənir".

## Müdafiə naziri də müharibə dilində danışır

Müdafiə naziri Suren Papikyan nazirliyin, Silahlı Qüvvələrin və Silahlı Qüvvələrin Baş Qərargahının rəhbərliyi ilə işgüzar görüş keçirib. İclasda Silahlı Qüvvələrin qış mövsümünə hazırlığı ilə bağlı tədbirlər, mühəndis-texniki təchizatla bağlı məsələlər müzakirə edilib. Nazirə əvvəlki görüşlərdə verilən tapşırıqların icrası barədə məlumat verilib.

Ardı Səh. 6





Əvvəli Səh. 5

Papikyan mövcud problemlərlə bağlı tapşırıq və göstərişlərini verib. Bu hazırlıq, yoxlamalar Hindistanın Ermənistanla artan əməkdaşlığı fonunda baş verdiyini də unutmamalıyıq.

## Putin Paşinyanı qətlə yetirə bilər

Bloqqer Aleksandr Nevzorov qeyd edib ki, Kreml dünya terrorizm mərkəzinin yüksək adını doğrultmalı və vaxtaşırı Belarus naziri kimi əlçatan obyektlərdə "istilənməlidir". Məşhur və tez-tez təkrarlanan "demokratiya təhlükədə" ifadəsi indi həmişəkindən daha aktualdır. Demokratiyaya, bütün sivil dünyanı birləşdirən dəyərlərə doğru "cəsarətli və barışmaz yola başlayan" Ermənistan birbaşa təhlükə altındadır. Təhlükə həm ölkənin liderləri, ilk növbədə baş nazir Nikol Paşinyan üçün, həm də dövlət üçün mövcuddur.





Xatırladaq ki, elə bu günlərdə Rusiya Federasiyası Dövlət Dumasının "Vahid Rusiya" partiyasından olan deputatı Yevgeni Fedorov çox hədələyici bəyanatla çıxış etmişdi: "Ermənistan geosiyasi baxımdan dalana dirənmiş ölkədir. Onun yaşaması Rusiyadan asılıdır. Məsələni necə həll etmək olar? Ermənistan qanunla SSRİ-dən çıxdı? Yox. Yəni bu, qeyri-qanuni ictimai qurumdur. Bununla bağlı hərəkətə keçməliyik".

Rusiya prezidenti Vladimir Putin və Belarus lideri Aleksandr Lukaşenkonun Ermənistana səfəri ilə bağlı İrəvanda keçirilən etiraz aksiyaları zamanı bütün dünya Avropa İttifaqının və Ukraynanın çoxlu sayda bayraqlarını gördü. Yəni Ermənistanın barrikadaların hansı tərəfində olduğu göstərildi.

Təbii ki, Kreml dərhal Fedorova və digər ram tənqidçilərinə "vur" əmrini verdi. Bəs sonra nə oldu? Və sonra hamı Nikol Paşinyanın "cəsarətli" demarşını gördü. O, açıq şəkildə Putindən yayınıb, sonra KTMT sammitinin yekun bəyannaməsini, eləcə də təşkilatın Ermənistana kollektiv yardım göstərilməsi bəyannaməsini imzalamamaqla Putin və Lukaşenkonun planlarına qarşı açıq şəkildə dirəniş göstərdi. Paşinyan bunu sənədin İrəvanın gözləntilərini doğrultmadığını bildirməklə əsaslandırdı.

Putin və Lukaşenkonun reaksiyasını hamımız gördük. Rusiya prezidentinin reaksiyasını xatırlamaq xüsusilə vacibdir. Lukaşenko İrəvanda Putinin ona tapşırdığı rolu məharətlə oynadı. Fiziki olaraq sağ qalmaq üçün oynadı. Bu qənaətin aşkarlığı Belarus Xarici İşlər Nazirliyinin rəhbəri Vladimir Makeinin "qəfil ölməsindən" sonra göründü. Onun ölümünün əcəllə bağlı olması versiyasına heç kim inanmır. Lakin onun zəhərlənmənin qurbanı olması faktına asanlıqla inanılır. Axı Makeyi Lukaşenkonun mümkün varisi adlandırırdılar və o, Rusiyanın birbaşa və sərt təsiri altında olmayan bir neçə nəfərdən biri idi.

Britaniyanın "The Daily Mirror" nəşrinin məlumatına görə, Vladimir Makey Ukrayna münaqişəsi ilə bağlı "gizli danışıqlardan" sonra dünyasını dəyişib. Britaniyalılar vurğulayırlar ki, Makei "rəsmi Minsklə Qərb arasında yeganə kommunikasiya kanalı idi. Vladimir Makeinin müəmmalı şəkildə ölümü Papanın elçisi Ante Yoziçlə Ukraynada müharibəyə son qoymaq üçün gizli sülh planını müzakirə etdikdən bir gün sonra baş verib. Bu da onu göstərir ki, Rusiyasının ölümcül qucağından hansısa yolla xilas olmaq cəhdləri o qədər də asan deyil.

Amma baş verənlərlə bağlı ən düzgün qiyməti telejurnalist və bloger Aleksandr Nevzorov verib: "Rusiyanın XİN başçısı Lavrov da inzibati varlıq mənasını itirib. Heç yerə buraxılmayan xarici işlər naziri kimə lazımdır? Bəs daha "xarici işlər" yoxdursa, Rusiyaya ümumiyyətlə, bu nazir niyə lazımdır?".

Erməni mətbuatı bütün bu xəbərlərdən sonra belə qənaətə gəlib ki, Putin Nikol Paşinyanın fiziki cəhətdən məhv edilməsi planını hazırlayır. Kremlin bütün təbliğatçıları deməkolar ki, açıq şəkildə buna çağırırlar. Deputat Fedorov kimi hər cür xırdalıqlar bütövlükdə Ermənistanı təhdid edir. Qərb necə, erməni dövlətçiliyini, erməni "demokratiyası"nı qorumağa borcludurmu?

## "Azərbaycan və Ermənistana təmkin və güclü siyasi iradə lazımdır"

Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Toivo Klaar ötən həftənin sonunda Azərbaycana səfərindən sonra fikirlərini bölüşüb. "1) Azərbaycan Prezidentinin Avropa İttifaqının dəstəklədiyi formata mühüm öhdəliyi. 2) Çoxlu problemlər qalmaqdadır; Gərginliyi azaltmaq və hərtərəfli nizamlanmaya nail olmaq üçün Azərbaycan və Ermənistana təmkin və güclü siyasi iradə lazımdır", - Klaar özünün Twitter mikrobloqunda yazıb.

Ötən gün Azərbaycan prezidenti İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanla dekabrın 7-də Brüsseldə nəzərdə tutulan görüşün baş tutmayacağını bildirib. Çünki Ermənistan tərəfinin görüşə Fransa prezidenti Emmanuel Makronun da qatılması şərti ilə razılaşdığını bildirib. Daha sonra Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Vaan Hunanyan görüşlərin davam etdirilməsi ilə bağlı razılığın əldə olunduğu Praqada əvvəlki görüşün dördtərəfli formatda keçirildiyini xatırladaraq, görüşün formatı və tərkibinin yaradılmasını məntiqli adlandırıb. O, Azərbaycan tərəfinin Ermənistan tərəfinin görüşü və sülh prosesini pozmağa çalışması ilə bağlı bütün bəyanatlarının reallıqla heç bir əlaqəsi olmadığını vurğulayıb və Ermənistanın Praqada əldə olunmuş razılığa və formata uyğun olaraq dekabrın 7-də keçiriləcək görüşə hazır olduğunu vurğulayıb.

Azərbaycan Prezidentinin Brüsseldə keçiriləcək danışıqlarda iştirakdan imtinası hipotetik olaraq Rusiya formatında danışıqların intensivləşməsinə səbəb ola bilər.

Bunu "Ermənistan" blokunun üzvü Artur Xaçatryan deyib. Onun sözlərinə görə, bir tərəfdən, Ermənistanın baş naziri Nikol Paşinyanın KTMT-nin son sammitində demarşı fonunda hadisələrin bu cür inkişafı erməni tərəfi üçün problem yarada bilər. "Üzv ölkələrindən hansının bizə lazım olan ifadəni sənədə daxil etməkdən konkret olaraq imtina etməsi məni çox maraqlandırmır - qırğızlar, yoxsa qazaxlar. Ümumiyyətlə, qırğızların, belarusların, qazaxların, taciklərin, rusların maraqlarını düşünmürlər. Bizim hamımız üçün birinci prioritet bir şeydir: Paşinyan bu strukturun rəhbəri vəzifəsini tutaraq bizə lazım olan sənədin qəbulunu təmin edə bilmədi, missiyasını yerinə yetirə bilmədi", - deyə deputat bildirib. Əlavə edib ki, Paşinyan bu strukturdan maksimum təmin etməyə borclu idi, lakin o, bunu bacarmadı. Digər tərəfdən, KTMT-dəki vəziyyət açıq şəkildə nümayiş etdirdi ki, Paşinyan zəif, səriştəsiz danışıqlar aparan şəxsdir. Bu kontekstdə rus formatının eksklüziv olaraq aktivləşdiriləcəyi və ya Brüssel formatının fəaliyyətini davam etdirəcəyi ilə bağlı böyük fərq olmayacaq. Danışıqlar masasının harada yerləşməsinin fərqi yoxdur: Moskvada, Brüsseldə, Vaşinqtonda, Parisdə və ya Antananarivuda kimin danışıqlar aparması vacibdir.

Bəli, bu, bir Ermənistan gerçəkliyidir, İrəvan bütün vasitələrdən, əlinə düşən bütün imkanlardan istifadə edir ki, sülh müqaviləsi imzalanmasın. Çünki, bu üsul, yanaşma Ermənistan üçün məqbul deyil. Beynəlxalq münasibətlər sistemində tanındığı gündən bu günümüzə qədər Ermənistan yalnız müharibə, təbii fəlakət, yoxsulluq, aclıq kimi bəhanələrlə dünya fondlarından para gəlməsini səbirsizliklə gözləyib. Sülh dövründə isə o pullar kimsəyə verilmir.

***V.VƏLİYEV***



TƏHLİL

# Tolerantlıq mühiti: dövlət-din konsepsiyası

## İlham Əliyev: "Azərbaycan cəmiyyətinin üstünlüklərindən biri onun çoxmədəniyyətli və çoxmillətli olmasıdır"



Müasir dünyada ayrı-seçkiliyin, təcrid olunmanın aradan qaldırılması birgə səylərin zəruriliyini ortaya qoymuş olur. Bu baxımdan, mədəniyyətlərin və dinlərin, müxtəlif baxışların tətbiq edilməsi vacib məsələlərdəndir. Dünyanın müxtəlif regionlarında sabitliyin pozulduğu, ekstremizmin və terrorçuluğun genişlənməsinin təhlükəli hal aldığı zamanda onların qarşısını almaq üçün siyasi yolların axtarılması və bəşəriyyəti irəliyə doğru aparacaq ideyaların təşviqinin gücləndirilməsi zərurəti yaranıb. Dünyanın müxtəlif yerlərində müxtəlif zəmində toqquşmaların baş verdiyi halda, Azərbaycan birgəyaşayışa çağırışlar edir, sülhün və həmrəylinin carçısına çevrilib. Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlər bəşəriyyətin təhlükəsiz gələcəyi və birgəyaşama ənənələrinə, dialoq və mədəni çeşidliliyə dəstəyin bariz nümunəsidir. Azərbaycan dünya ölkələri arasında mədəni əlaqələrin gücləndirilməsinə ev sahibliyi edərək, bu əlaqələrin inkişafına yüksək önəm verdiyini ortaya qoymuş olur. "Hesab edirəm ki, Azərbaycan cəmiyyətinin üstünlüklərindən biri onun çoxmədəniyyətli və çoxmillətli olmasıdır. Bu, hər zaman belə olub. Niyə? Ola bilsin, əsas cavab onunla bağlıdır ki, hər kəs dini və etnik mənşəyindən asılı olmayaraq, burada, Azərbaycanda özünü rahat hiss edir. Fikrimcə, bu, bizim həqiqi mənada üstünlüklərimizdən biridir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda bildirib.

### "CƏMİYYƏTƏ VERDİYİMİZ MESAJLAR ONDAN İBARƏTDİR Kİ, DİN DÖVLƏTDƏN AYRI OLMALIDIR"

Qeyd edək ki, Azərbaycan mədəniyyətlərarası dialoqun məkanıdır. Bu təşəbbüsün əsası 2008-ci ilin 2-3 dekabrında Bakıda keçirilən Avropa və İslam Ölkələri Mədəniyyət Nazirlərinin Konfransında Prezident İlham Əliyev tərəfindən irəli sürülən "Bakı Prosesi" ilə qoyulub. 2010-cu ildən, "Bakı Prosesi" qlobal hərəkata çevrilməyə başladı. 2010-cu ilin 23 sentyabr tarixində BMT-nin Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi elan edildi.Bu gün Şərqlə Qərbin ortaq dəyərlər modeli sayılan ölkəmiz Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində dünyanın mədəniyyətlərarası dialoq mərkəzlərindən biri olaraq töhfə verir. Xalqımızın çoxəsrlik tolerant, mehriban birgəyaşama mədəniyyəti dünya sivilizasiyaları arasında münasibətlərin tənzimlənməsi və inkişafında nümunə kimi göstərilir. Ölkəmizdə milli və ümumbəşəri dəyərlərin insan hüquqları və azadlıqlarının, tolerantlıq və dözümlülüyün prioritet məsələ kimi qəbul olunması dövlət siyasətinin əsas prinsipi kimi müəyyənləşdirilib. "Bizim güclü inamımız və ölkənin inkişafı ilə bağlı burada gördüyümüz işlər, eləcə də cəmiyyətə verdiyimiz mesajlar ondan ibarətdir ki, din dövlətdən ayrı olmalıdır. Azərbaycanda biz hamımız müsəlmanıq. Həmçinin xristianlar, yəhudilər və digər dinlərin nümayəndələri var. Lakin din siyasi həyata müdaxilə etməməlidir. Kimsə siyasi İslam barədə danışanda biz başa düşmürük. Bu, Azərbaycanda adi hal deyil. Düşünürəm, bizim bu coğrafiyada müstəqil ölkə kimi üstünlüklərimizdən və nailiyyətlərimizdən biri odur ki, biz, eyni zamanda, bütün vətəndaşlarımızın dini hisslərinə tam hörmət etməklə cəmiyyətimizin dünyəvi mahiyyətini gücləndirməyə nail olmuşuq", - deyə Prezident vurğulayıb.

### AZƏRBAYCANDA DİNİ TOLERANTLIĞIN NÜMUNƏSİ



Dünyanın qarışıq dövründə bir məkanda yəhudilik, xristianlıq və islamın, eləcə də müxtəlif inancların qarşılıqlı hörmət şəraitində Azərbaycanda yaşaması ölkəmizə marağı daha da artırıb. Tolerantlıq və multikulturalizm məkanı olan Azərbaycan həm ölkədə, həm də bütün dünyada tolerantlıq və mədəniyyətlərarası dialoq yaratmağı davam etdirməyi qarşıya məqsəd qoyub. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına olaraq uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini, həm də məzhəb baxımından zəngindir. Xalqımızın milli özəlliyi, səmavi dinlərin tarixən ərazimizdə yayılması, VII əsrdən torpaqlarımızda bərqərar olmuş İslam dininin təlqin etdiyi ideallar Azərbaycanda müxtəlif dini və milli mənsubiyyətə mənsub insanların birgəyaşayışı sahəsindəki uğurlarını artıran məqamlardandır. Bu məkanda bütün tarixi dini abidələr dövlət tərəfindən qorunur, eyni zamanda, dövlət vəsaiti hesabına bərpası təmin edilir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. Bakıdakı Heydər Məscidi, Gəncədə "İmamzadə" kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır. Təbii ki. müsəlman məbədləri ilə yanaşı, pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri də həyata keçirilib ki, bu da Azərbaycanda dini tolerantlığın nümunəsidir. Bu, Azərbaycanda dövlət-din münasibətlərinin, dinlərarası dialoq, tolerantlıq nümunəsi kimi səciyyələnir, dövlət siyasətinin real mənzərəsini əks etdirir. Bu gün ölkəmizdə 2200-dən artıq məscid mövcuddur, 14 kilsə fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyət göstərir. Bakıda atəşpərəstlik məbədi - Atəşgah yerləşir. Bu ona dəlalət edir ki, ölkəmizdə zərdüştlük dininin kökləri var.

### BEYNƏLXALQ KONVENSİYALARA ZİDD ƏMƏLLƏR

Bu gün 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunan ərazilərimizdə də dini tarixi abidələrimiz bərpa edilir. Qarabağda və Şərqi Zəngəzurda tarix və mədəniyyət abidələrinin dağıdılması, ermənilərin özbaşınalığı "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il konvensiyasına ziddir.

Sülhə nail olmaq imkanlarına maneə törədən qeyri-sabit dövlətlər Azərbaycandakı əmin-amanlıqdan, tolerantlıq ənənələrini görürlər. Ölkə səviyyəsində, eləcə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verən Azərbaycan bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə tədbirləri keçirməklə, dünyanın diqqətini özünü cəlb edən Azərbaycan bu və ya digər tədbirlərlə xalqlar və dövlətlər arasında əməkdaşlığa xidmət edir. Sülh içində yaşayan plüralist və demokratik cəmiyyətlər qurmaq üçün dağıdıcı cərəyanlara qarşı birlikdə mübarizə aparmağın vacibliyi əsas məsələ kimi bu və ya digər məsələlər müzakirə olunur.

***Zümrüd BAYRAMOVA***

## Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş qızıl sikkələr hazırlanacaq

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş qızıl sikkələr hazırlanacaq. SİA xəbər verir ki, bu barədə Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planında əks olunub. İcraçı orqanlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Mərkəzi Bankıdır. Sikkələrin hazırlanması 2023-cü il fevral-may ayını əhatə edəcək.



## AZƏRTAC-ın İdarə Heyətinin yeni sədri kollektivə təqdim olunub



Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri vəzifəsinə təyin olunan Vüqar Əliheydər oğlu Əliyev noyabrın 28-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tərəfindən kollektivə təqdim olunub. AZƏRTAC xəbər verir ki, təqdimatda Hikmət Hacıyev çıxış edərək Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrini çatdırıb. Vüqar Əliyev ona göstərilən etimada görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

## Əhməd İsmayılov xarici jurnalistlərlə görüşüb



Noyabrın 28-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov xarici jurnalistlərlə görüşüb. Media İnkişaf Agentliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, görüş zamanı Əhməd İsmayılov ölkəmizdə media sahəsində həyata keçirilən islahatların gedişatı, "Media haqqında" Azərbaycan Respublikasının Qanunu və Media Reyestrinin mahiyyəti barədə qonaqlara ətraflı məlumat verib. O, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının, məsuliyyətinin və cəmiyyətin media savadlılığının artırılması istiqamətində görülən çoxşaxəli və kompleks tədbirlərdən bəhs edib.

Görüşdə Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğunda Səfirliyi Avropa İttifaqı yanında Nümayəndəliyinin birinci katibi Ramil Tağıyev media sahəsində əməkdaşlıq formatları və xarici media nümayəndələri ilə əlaqələrin gücləndirilməsi kimi məsələlərə diqqət çəkib, qarşılıqlı fəaliyyətin və tərəfdaşlığın səmərəliliyinin və müsbət dinamikasınınartırılmasının vacibliyini vurğulayıb.

Görüşdə media sahəsində beynəlxalq əlaqələrin gücləndirilməsi, səmərəli əməkdaşlıq və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

***Banuçiçək Hüseynli***



# Biz Ulu Öndərin yolu ilə gedirik

## İlham Əliyev:
"Ulu Öndərin yolu ilə gedərək biz, əlbəttə, bu gün dünyada baş verən dəyişikliklərə də çox diqqətlə yanaşırıq, ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edirik. Əminəm ki, növbəti illərdə bu sahədə istədiyimizə nail olacağıq"

**Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanda çox mürəkkəb iqtisadi, ictimai-siyasi vəziyyət hökm sürürdü. Bir tərəfdən də Ermənistan Azərbaycana qarşı ərazi iddiaları ilə ölkəmizə qarşı hərbi təcavüzə başlamışdı. Azərbaycanın ovaxtkı rəhbərliyinin səriştəsizliyi və xəyanətkarlığı, öz vəzifələrini qorumaq üçün sovet rəhbərliyinə yaltaqlanmaları qarşıda xalqı çətin anların gözlədiyindən xəbər verirdi. Sovet rəhbərliyinin bütün bunlardan istifadə etməklə ermənipərəst siyasətini aktivləşdirməsi qonşuluqda məqam gözləyən ermənilərə öz murdar niyyətlərini həyata keçirmək üçün əlverişli şərait yaradırdı.**

Həmin vaxt ölkəmizin Ermənistanla sərhədboyu rayonları ermənilər tərəfindən mütəmadi olaraq atəşə tutulurdu. Eyni zamanda Naxçıvan Muxtar Respublikasına qarşı da ermənilər ərazi iddiası ortalığa atmış, kommunikasiyaları kəsməklə Naxçıvanı blokada vəziyyətinə salmışdılar.

Məhz belə bir vaxtda - 1990-cı ilin iyul ayında xalqımızın böyük oğlu Heydər Əliyevin doğulub böyüdüyü Naxçıvana gəlməsi muxtar respublikanı başı üzərini almış təhlükədən, bu qədim diyarı erməni işğalından, muxtariyyətini ləğv olunmaq təhlükəsindən xilas etməklə yanaşı, Azərbaycanın müstəqilliyi uğrunda azadlıq hərəkatının başlanması, ulu öndərin xalqın xilaskarı kimi milləti böyük bəlalardan qurtarması, müstəqilliyimizin qorunması, daimiliyi ilə nəticələndi.

Ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyət kəsb edən Yeni Azərbaycan Partiyasının bu günlərdə qeyd olunan 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə dövlətimizin başçısının çıxışında əvvəldən sonadək Heydər Əliyev siyasi xətti, ideyaları, yolu ilə getməklə əldə olunan uğurlardan bəhs etməsi ilə ötən illərin şanlı tarixinin səhifələri yenidən bir-bir vərəqləndi.

Ümummilli liderimizin Azərbaycana, xalqımıza, onun müstəqilliyinə bəslədiyi məhəbbət fonunda ərazi bütövlüyümüzün bərpası, ölkəmizin inkişafı üçün həyata keçirdiyi misilsiz xidmətlər bu gün öz bəhrəsini verib. Bunu hər bir vətəndaş görür və qürur duyur. Partiyanın yaranması tarixinə nəzər salan dövlət başçısının çıxışında da bu məqamlar öz əksini tapdı: Partiyamızın yaranması tarixi hadisə idi. O vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı. Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdir, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdir. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı.

Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransını tarixi hadisə adlandıran dövlətimizin başçısı deyirdi: Ulu Öndərin sədrliyi ilə keçirilmiş bu konfransdan sonra ölkəmizdə yeni siyasi qüvvə yaranmışdır. Yeni Azərbaycan Partiyası yarananda müxalifət partiyası kimi yaranmışdır və dövlətin ağır problemlərinin, yükünün bir hissəsini öz üzərinə götürmək böyük məsuliyyət tələb edən addım idi. Çünki o vaxt, bir daha demək istəyirəm, ölkədə gedən proseslər çox narahatedici idi və Azərbaycanın görkəmli nümayəndələrinin məhz Heydər Əliyevə müraciət etməsi bu zərurətdən doğurdu. Çünki ölkə artıq idarəolunmaz vəziyyətə düşmüşdü, bir il ərzində dövlətçiliyin əsasları qoyulmamışdı, demokratik inkişaf ləng gedirdi, əslində, geriyə addımlar atılırdı. Biz təkcə senzuranın tətbiq edilməsini yada salsaq, demək kifayətdir ki, o vaxt demokratik mühitdən söhbət gedə bilməzdi. Yeni Azərbaycan Partiyasının təsis konfransının məhz Naxçıvanda keçirilməsi də buna bağlı idi. O vaxt Bakıda bu konfransın keçirilməsinə icazə verilməmişdi. Yəni, demokratik dəyərlər elan olunsa da, Azərbaycan xalqı faktiki olaraq həyatda bunun əksini görürdü. Media azadlığı yox idi, iqtisadiyyat çox ağır vəziyyətdə idi, insanların sosial vəziyyəti gündən-günə ağırlaşırdı, yoxsulluq təxminən 90 faizə çatmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi. Bizim sənayemizin aparıcı sahəsi olan neft-qaz sənayesi də böyük tənəzzülə uğramışdı və faktiki olaraq ölkəmizdə elektrik enerjisi böhranı hökm sürürdü. Nizami ordu yaradılmamışdı, inflyasiya ikirəqəmlidən üçrəqəmliyə keçirdi. Yəni, budur 1992-ci ilin noyabr ayında ölkəmizdə yaranmış vəziyyət.

### Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi

1980-ci illərin sonu, 1990-cı illərin əvvəlində Azərbaycanın xilası üçün xalqın ziyalı nümayəndələri ümummilli liderimizi tək çıxış yolu olaraq görürdülər. Çünki ona inanır və böyük ümid bəsləyirdilər. Onun birinci dəfə Azərbaycanda hakimiyyətdə olduğu dövrdə gördüyü işlər, dövlətimizin başçısının da vurğuladığı kimi, həmin dövrdə Qarabağda separatist qüvvələrin baş qaldıra bilməməsi bu inamı daha da möhkəmlətmişdi. Dövlət başçısının dediyi kimi: Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi. Bu inamın əsas səbəbləri o idi ki, Azərbaycanda işlədiyi dövrdə o həmişə xalqa xidmət edirdi, həmişə xalqın qayğıları ilə yaşayırdı, həmişə xalqla birlikdə idi, bir yerdə idi. Məhz onun rəhbərliyi altında Azərbaycan 1970-80-ci illərin əvvəllərində sovet məkanında ən geridə qalmış respublikadan ən qabaqcıl respublikaların birinə çevrilmişdir və bütün statistik göstəricilər bunu təsdiqləyir. Eyni zamanda, Azərbaycanda yaşayan vətəndaşların həyat səviyyəsi ildən-ilə yaxşılaşırdı, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan insanlar öz həyatını yenidən qura bilmişdilər. Xalqımızın Heydər Əliyevə inamı, yenə də deyirəm, misilsiz idi. Xüsusilə xalqımızın 1980-ci illərdə üzləşdiyi faciə bir daha göstərirdi ki, xalqımız yalnız Heydər Əliyevi rəhbər vəzifədə görmək istəyir.

Dövlət başçısı ötən 30 ilin tarixini çox ətraflı, bütün hadisələri xronoloji ardıcıllıqla şərh etməklə böyük bir tarixdən söhbət açır, ulu öndərimizin qətiyyətini, iradə və bacarığını tarixi faktlarla göstərirdi: ... Heydər Əliyev bütün vəzifələrdən istefa verəndən iki həftə keçməmiş erməni separatçıları artıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşməsi ilə bağlı məsələ qaldırmışdılar. Yəni, bu amillər göstərir ki, Ulu Öndər pensiyada olanda da, xalqımız üçün ən faciəvi günlərdə də xalqla birlikdə idi. 20 Yanvar faciəsinin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hökumətini, Kommunist Partiyasını - uzun illər xidmət etdiyi partiyanı ittiham etmişdir, bu dəhşətli cinayəti qınamışdır. Bütün bunlar və eyni zamanda, Naxçıvanda çalışdığı dövrdə müstəqilliyə doğru atılan addımlar, o cümlədən Azərbaycan Demokratik Respublikasının Dövlət Bayrağının Naxçıvanda rəsmi bayraq kimi təsis edilməsi və digər addımlar, həmçinin Naxçıvanın erməni işğalından qorunması xalqın ona inamını daha da artırırdı və bütün bu amillər nəticədə xalqımızın müdrikliyinə əsaslanaraq gələcəkdə Azərbaycanı böyük bəlalardan qurtara bilmişdir.

Bəli, dövlətimizin başçısının da qeyd etdiyi kimi, YAP-ın təsis konfransından yeddi ay keçəndən sonra Heydər Əliyevin xalqın tələbi ilə Bakıya dəvət edilməsi, parlamentin sədri seçilməsi, 11 ay keçəndən sonra - oktyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə tariximizin o qara səhifəsi bağlanmışdır. Və biz bağlanan o qara səhifədən sonra başlanan tariximizin parlaq səhifələri ilə bu gün fəxr edir, qürur duyuruq.

## Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik

Ulu öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

## Son 19 ilin hadisələri Ulu Öndərin bütün tapşırıq və tövsiyələrinin yerinə yetirildiyini göstərir

Bəli, ötən 19 ilin hər saatında, hər anında ulu öndərimizin tapşırıq və tövsiyələrinin yerinə yetirildiyi görürük. Həm də çox yüksək səviyyədə. Bu tapşırıq və tövsiyələrin yerinə yetirilməsində bütün cəmiyyətimizin səfərbər olduğunu da görmək mümkün olub. Çünki ulu öndər Azərbaycan üçün nə qədər əzizdirsə, onun tapşırıq və tövsiyələrinin bu xalqın nümayəndələri tərəfindən yerinə yetirilməsi bir o qədər qürurvericidir. Biz bütün işlərdə həmişə dövlətimizin başçısının arxasında olmuşuq.

Prezident cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə bu barədə deyirdi: Yəni, 1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir. Bizim uğurlu iqtisadi-maliyyə siyasətimiz nəticəsində xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bu da həm bu gün üçün, həm gələcək nəsillər üçün böyük üstünlük təşkil edir. Bu gün ona görə ki, bizim kredit reytinqimiz yaxşılaşır. Gələcək nəsillər üçün ona görə ki, bu yük gələcək nəsillərin üzərinə düşməyəcək. Bir neçə il bundan əvvəl mənim göstərişimlə aparılan islahatlar nəticəsində bu ilin sonuna biz xarici borcumuzun ümumi daxili məhsuldakı payını 10 faizə qədər endirəcəyik. Əgər valyuta ehtiyatlarımızı götürsək, bizim valyuta ehtiyatlarımız xarici borcdan 8 dəfə çoxdur. Yəni, ancaq nadir ölkələr bu göstəricilərlə fəxr edə bilər.

## Azərbaycan dövləti Ulu Öndərin vəsiyyəti əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir

Azərbaycan xalqının özünəməxsus milli dəyərləri vardır ki, bu xalq hansı dövrdən, çətinliklərdən, müharibələrdən, ağrı-acılardan keçməsinə baxmayaraq həmin dəyərlərə sadiq qalmış, onları qoruya-qoruya nəsillərdən-nəsillərə təhvil vermişdir. Onlardan biri də xalqın birliyi, həmrəyliyidir ki, 44 günlük Vətən müharibəsində də bunun şahidi olduq. Ulu öndərimiz də bu dəyərlərin hər zaman qorunmalı olduğunu tövsiyə edirdi.

Prezident cənab İlham Əliyev: Azərbaycan dövləti Ulu Öndərin bizə etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Biz hamımız bunun şahidiyik ki, gənc nəsil də milli ruhda böyüyür, gənc nəsil milli ənənələrə sadiqdir, azərbaycançılıq ideyalarına sadiqdir. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır, bu da Ulu Öndərin siyasəti idi. Biz bu siyasəti uğurla davam etdirərək, zənginləşdirərək bu gün Azərbaycanda, hesab edirəm ki, dünya miqyasında nadir və təkrarolunmaz mühit yaratdıq. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin hamısı bir nəfər kimi ölümə getməyə hazır idi, ölümə gedirdi, azad edilmiş torpaqlarda bayrağımızı qaldırırdı. Bu, bizim böyük üstünlüyümüzdür. Bu istiqamətdə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə bu gün Azərbaycan nümunəvi davranış göstərir. Əsas məsələ odur ki, bütün Azərbaycan xalqı tərəfindən, Azərbaycanda yaşayan bütün etnik qruplar tərəfindən bu siyasət dəstəklənir. Bu, bizim gücümüzü artırır və bundan sonra gələcək nəsillər də məhz belə yaşamalıdır, əminəm ki, belə yaşayacaqlar.

## Güclü ordu quruculuğu Ulu Öndərin vəsiyyəti idi

Bu, tarixi faktdır ki, 90-cı illərin əvvəllərində ordumuz yox dərəcəsində idi. Yənu ordu quruculuğu işini həmin dövrdə gündəmə gətirən də yox idi. Çünki ovaxtki dövlət rəhbərlərinin başı öz vəzifə kürsülərini qoruyub saxlamağa qarışmışdı. Onlar ordu barədə nə üçün düşünməli idilər ki? Öz əlləri ilə düşmənə satdıqları torpaqları qorumaq üçünmü? Bu iki hal bir-biri ilə ziddiyyət təşkil etdiyinə görə bu barədə danışmağa da əsla dəyməz.

Lakin həmin dövrdə Naxçıvanda yaşayan və fəaliyyət göstərən dahi şəxsiyyət Heydər Əliyev üçrəngli dövlət bayrağımızın qaldırılması, dövlət rəmzlərimizin tanınması kimi, artıq orada ordu quruculuğuna da başlamışdı. Azərbaycan Milli Ordusunun təməli ulu öndər tərəfindən qoyulmuşdu. Sonrakı illərdə isə bu, daha da şaxələndirildi və bu sahədə həyata keçirilən bir-birindən əhəmiyyətli işlər bugünkü güclü ordumuzun yaradılması ilə nəticələndi.

Bu barədə dövlətimizin başçısı deyir: Güclü ordu quruculuğu. Bu da Ulu Öndərin bizə olan vəsiyyəti idi. Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır. Biz ordu quruculuğuna həmişə çox böyük diqqət göstərmişik. Bəzi işlər ictimai diqqətə də təqdim edilirdi, bəzi işləri biz daha çox konfidensial, yəni, məxfi şəraitdə aparırdıq, bu da başadüşüləndir. Amma nəticə etibarilə elə bir qəhrəmanlıq, elə bir peşəkarlıq göstərdik ki, bu, bu gün bir çoxları üçün nümunədir.

## Başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq

Bu barədə Prezident İlham Əliyevin dəyərli və yaddaqalan, bütün nəsillərə nümunə olan dəyərli fikirlərini dinləmək kifayətdir: Heydər Əliyev öz siyasi vəsiyyətində bir şey də demişdir. Artıq bunu dəfələrlə demişəm, Azərbaycan xalqı da bilir ki, başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq. Onların arasında yəqin ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni, hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu, bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Ona görə bütün işlərimizin mahiyyəti məhz bu idi - Qarabağı azad etmək, tarixi ədaləti bərpa etmək. Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz avantüraya heç vaxt gedə bilməzdik. Biz səhv addım, yaxud da ki, vaxtsız addım ata bilməzdik. Biz hər şeyi ölçüb-biçib öz gücümüzü, eyni zamanda, digər amilləri nəzərə alaraq ən düzgün vaxt seçməli idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız Ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi.

## Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi

Bəli, bütün həyatını, sağlamlığını xalqının xoşbəxtliyinə, müstəqilliyimizin əbədiliyinə, torpaqlarımızın azadlığına həsr edən böyük Heydər Əliyevin həyatı da, fəaliyyəti də bir fədakarlıq nümunəsi idi.

Yaxşı yadımdadır, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində torpaqlarımızı satanlar isti otaqlarında boş-boş işlərlə məşğul olduqları zaman ulu öndərimiz qazsız, işıqsız Naxçıvanda buz kimi evdə yaşayır, Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyətə malik olan sənədlərə qaranlıq, soyuq iş otağında imza atırdı. Saatlarla o soyuq otaqda bu xalqın qurtuluşu üçün yollar axtarıb tapırdı. Minilliklər boyu bir xaqlın taleyində belə şəxsiyyətlər çox az halda olur. Biz çox xoşbəxt xalqıq ki, ulu öndər bizim tale payımız, alın yazımız olub. Biz bugünkü müasir, müstəqil Azərbaycan üçün ulu öndərimizə, onun ölməz ideyalarına borcluyuq. Dövlətimizin başçısının söylədiyi kimi: Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi. O, hətta özü üçün ən çətin dövrlərdə, artıq son illərdə fiziki sağlamlığı əvvəlki kimi olmadığı dövrdə də hər zaman hər birimizə nümunə göstərirdi. Hər birimiz, o cümlədən mən onun sağlığında da və yoxluğunda da onun kriteriyalarına uyğun hərəkət etməyə çalışırıq. Bu gün bizi qabağa aparan məhz budur - onun xatirəsinə hədsiz hörmət və onun mirasına olan münasibət. Onun mirası da bu gün müstəqil Azərbaycandır.

Sonda yenə də dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dəyərli fikirlərini söyləmək istəyirəm: Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir.

Bəli, Azərbaycan xalqı bu dövlətlə də, sizin kimi lideri ilə də fəxr edir!

***Mətanət Məmmədova***

# Paşinyanın sülh prosesindən QAÇMAQ NİYYƏTİ VAR

**Sülh prosesini uzatmaq və separatçı hərəkətlərinə haqq qazandırmaq cəhdləri ilə bağlı Ermənistanın son cəhdləri də bütün dünyanın diqqətindən yayına bilməz. Ələlxüsus Ermənistanın baş naziri Nikol Paşinyanın KTMT dövlət başçılarının görüşündə qalmaqal yaratması, sonra da Fransa prezidentinin iştirakı olmadan Azərbaycanla danışıqlardan imtina etməsi işğalçı ölkənin sülh prosesindən yayınmaq, qaçmaq niyyətində olduğunu sübut etdi.**



Paşinyanın avantürist olduğu yenə də özünü göstərdi və ən azından bu ilin sonuna qədər sülh müqaviləsinin bağlanmasına əngəl yaratmaq istədiyi də göz önündədir. Hətta iki ölkə sərhəddində gərgin vəziyyətin ola bilməsinə belə biganə qalmasının da isbata ehtiyacı yoxdur, əks halda sülh prosesinə maraqlı olar, bunun üçün səy göstərərdi. Hadisələrin gedişi isə təsdiq edir ki, erməni baş nazir sadəcə öz hakimiyyəti haqqında, öz kürsüsünü qorumaq haqqında düşünür və daxili auditoriyaya hesablanan fikirlər, bəyanatlar səsləndirir ki, kütlənin qəzəbinə tuş gəlməsin. İndi erməni cəmiyyətinin çaşqınlıq içərisində olması, kimlərdənsə, hansısa ölkədən, hansısa ölkənin liderindən yardım diləmək istəyi Nikolun da diqqətindən yayınmayıb və Makronun iştirakı olmadan görüşdən imtina etməsi onun məhz daxili auditoriyaya hesablanan növbəti avantürasıdır.

Danışıqlar prosesinə bir daha nəzər saldığımız zaman görürük ki, Nikol Paşinyanın öz vədlərindən, imzaladığı öhdəliklərdən boyun qaçırması, ümumiyyətlə, hər cavabdehlikdən qaçması adi hala çevrilib və onun, həmçinin rəhbərlik etdiyi ölkəsi üçün qaçmaq ənənə halını alıb. Döyüş meydanından qaçan ermənilər indi də danışıqlardan qaçırlar, özü də bunun hara qədər davam edəcəyini düşünmədən. Yəni, Nikol özü də fərqində deyil ki, bu qaçışlarının nəticəsi onun üçün də, ölkəsi üçün də ağır nəticələri ola bilər? Axı küçə nümayişlərindən istifadə edib Qərbin köməyi ilə hakimiyyət kürsüsünü ələ keçirən bu avantürist məsuliyyətdən qaçmağın, məsuliyyətsiz, sərsəm fikir və bəyanatların nə ilə nəticələndiyini iki il əvvəl görüb. Elə isə bu nə qaçışdır və bunun hansı acı nəticələrə gətirib çıxaracağı heçmi erməni baş naziri maraqlandırmır?

Bu dəfə Nikol əsrlər boyu böyük qardaş adlandırdıqları ruslardan, şəxsən Rusiya prezidenti Putinin əlindən qaçıb Fransa prezidenti Makrona yaltaqlanmaq qərarına gəlib. Azərbaycanla danışıqlar və görüş zamanı Makronun iştirakını istəməsi də təsadüfi deyil, bu səbəbdəndir. KTMT dövlət başçılarının görüşünün ardınca belə bir istəyə düşməsi özü də bəzi məqamlara aydınlıq gətirmək üçün kifayətdir və görünür, o əlini hər yerdən üzüb, yeganə ümid yerinin də ancaq Fransada, bu ölkənin prezidentində olduğu qənaətindədir. Ancaq Paşinyan bərk yanılır, çünki heç bir ölkə nə beynəlxalq hüququn əleyhinə gedərək Azərbaycan həqiqətlərinə qarşı çıxaraq Ermənistanı haqlı çıxara bilməz, nə də heç bir dövlət ölkəmizin işinə qarışa, burnunu soxa və bizi nəyə isə vadar edə bilməz, buna gücü də, ixtiyarı da çatmaz.

KTMT dövlət başçılarından heç biri Ermənistanın, eyni zamanda bu ölkənin baş nazirinin istəklərinə görə Azərbaycanı qınamadı belə və bu reallığı bütün dünya da gördü. Azərbaycanın iştirak belə etmədiyi görüşdə əleyhinə fikir səsləndirilmədi və Paşinyan da başa düşdü ki, səyləri əbəsdir. İrəvanda KTMT-nin qərarlarının heç biri Paşinyanın istəklərinə cavab vermədi və bunu erməni baş nazirinin timsalında vətəndaşları da həzm edə bilmirlər. Amma reallıq budur ki, Bakı İrəvanı öz ölkəsində də məğlub etdi. Azərbaycanın diplomatik uğuru kimi bu da tarixə yazıldı və ölkəmizin haqlı tərəf olduğu bütün dünyaya bəyan edilmiş oldu. Məsələ burasındadır ki, bu həqiqətləri də başda elə erməni baş naziri olmaqla, bütün ermənilərin, ələlxüsus görməməzliyə vurmaq, Azərbaycanın haqlı olduğunu qəbul etməmək, görməzdən gəlmək niyyətində olduğu özünü çox gözlətmədi və Azərbaycnla danışıqlar zamanı Makronun iştirakını Paşinyanın istəməsi deyilənləri isbatlayır.

Heç şübhəsiz ki, Paşinyan, onun ölkəsini, Ermənistanı Fransanın bacısı adlandıran bir adamı, prezident Makronu görüşdə iştirak edəcək biri olaraq seçməklə, planlaşdırılan görüşdə guya "Qərbə üz tutmaq" niyyətini açıqlayır. Ən gülünc məqam isə ondan ibarətdir ki, Ermənistan və bu işğalçı ölkənin baş naziri elə burada da yanlışlığa yol verib, hətta nə etdiyini sonra anlayacaq. Əvvəla anlayacaq ki, Fransa Qərb dünyasından həmişə fərqli olub və hazırda NATO daxilində Türkiyə və İngiltərə ilə dərhal münaqişə yaradır. Digər tərəfdən də Fransanın özünün arxalanmalı olduğu ölkələr var və bunu avropalılar da bilirlər.

Nikol Paşinyan bilmirmi ki, Qərbə yön almaqla, Rusiyanın, həmin ölkənin prezidentinin ən azından xətrinə dəyməklə və öz təhlükəsizliyini, rusların təmin etdikləri təhlükəsizliyi tamamilə risk altında qoyur? Ermənistanın baş nazirinin Fransa prezidentinə kömək üçün yaltaqlanmaq cəhdi özü də axmaq səslənir. Əvvəla ona görə ki, Fransa heç də Qərb üçün etalon deyil. Heç Qərb Fransanı saya da salmır, yalnız diplomatiya xatirinə belə ifadələr açıqcasına səslənmir, əks halda da ara tamamilə qarışardı. Qərb heç zaman Fransanın ötən əsrdə təkcə Əlcəzairdə törətdiklərini bilir və hər bir halda Fransa ilə eyni mövqeyi heç kim istəməz. Elə dünyanın bir çox qabaqcıl ölkələri Fransanın təkcə Əlcəzairdə törətdiyi bütün əməllərə görə onunla bir müstəvidə qərarlaşmaq niyyətində ola bilməz. Bir sözlə, Ermənistanın, bu ölkənin baş nazirinin Qərb dedikdə Fransanı nəzərdə tutması yanlışlıqdır, çünki Fransaya yaxınlaşmaq Qərbə yaxınlaşmaq deyil.

Əslində, birini, özü də bu zamana qədər arxasını söykədiyi birini digərinə satmaq, qaçıb aradan çıxmaq erməni xisləti üçün qəbul olunandır və bu dəfə Paşinyan bunu nümayiş etdirmiş oldu. Qaçıb Makronun qucağına sığınmağı özünə rəva bilən Paşinyan və onunla eyni ağılda olan ermənilər elə hesab edirlər ki, Fransa onlar üçün nə isə edə biləcək? Bəlkə Fransa prezidenti yenidən Qarabağı ermənilərə qaytara bilər ki, bacardıqca işğal etsinlər, dağıtsınlar? Əlbəttə ki, yox. Bunu səsləndirmək belə absurddur, çünki Fransanın da, fransızların da, şəxsən Makronun da belə bir imkanı yoxdur, ola da bilməz. Digər tərəfdən, əgər ermənilər elə hesab edirlərsə ki, Rusiyanın əlindən çıxıb Fransaya üz tutmaqla bütün dünyanı Azərbaycanla müharibəyə cəlb edəcəklər, deməli, başlarını artıq tamam itiriblər. Ona görə ki, əvvəla Ukraynaya dünya ölkələrinin yardımını presedent hesab edənlər unudurlar ki, Ermənistan Ukrayna deyil və bu cür baxışa umid edilməz. Həmçinin Fransa dünya demək deyil ki, ermənilər bu təmənnada olsunlar. Digər tərəfdən də axı dünya niyə Ermənistana, ermənilərə görə müharibə etməlidir. Yaxud silah belə ermənilərə niyə pulsuz verilməlidir axı? Hansı ölkə üçün Ermənistan yararlı, lazımlı sayıla bilər və bu ölkənin nəyi var ki, kimlər üçünsə maraqlı olsun? Ağır silahların pulunu Ermənistan verə bilərmi? Bəlkə Fransa ermənilərin əvəzinə döyüşə gedəcək, yoxsa Ermənistana pulsuz silah verər? Versə idi 44 gün ərzində verərdi və bu barədə onsuz da erməni politoloqları yetərincə danışıblar və hələ də danışırlar. Fransa Senatının qətnaməsindən bir neçə patronu üstün hesab edən ermənilər var. Bəs əgər Fransa silah verməyibsə, vermək fikri də yoxdursa, o zaman Qərb Ermənistana pulsuz silah verərmi? İndi Paşinyanın illüziyaları yenə işə düşüb və kütləni ələ almaq, daha doğrusu ələ salmaq "məharətindən" elə məharətlə də istifadə edir, amma unudur ki, bu onun üçün erməni xalqı yox bütün dünya ictimaiyyətidir və bu ictimaiyyət Azərbaycanın haqlı olduğunu çoxdan bilir də, etiraf da edir. Bir sözlə, səyləri çox mənasız və əbəsdir.

Ermənistan rəsmiləri öz ölkələrinin Qərbin qlobal mövqelərinə uyğunlaşmağı gözlədiklərini gizlətmirlər. Deməli, Ermənistan artıq əlini Rusiyadan tamamilə üzüb və indi də Qərbə qarmaq atır görək nə olur. Rusiya prezidenti Vladimir Putin dəfələrlə ermənilərin qaçıb rəqib tərəfə keçməsinin şahidi olub və indi də bunu Makrona tərəf qaçmaq istəyən Paşinyandan görür. Öz mövcudluğu dövründə bu ölkəni digərinə, onu da bir başqasına asanlıqla satan ermənilər üçün adi hala çevrilən satmaq və qaçmaq indi yenə də təzahür edir. Özü də erməni baş nazirin simasında. Bu ölkənin siyasi fiqurları, politoloqları, analitikləri belə Rusiyaya "rədd ol", deyib Qərbin ətəyindən yapışmaq tövsiyyəsi verir öz ölkəsinin hakimiyyətinə. Paşinyan da kütlənin xoşu gəlsin deyə indi də Rusiyanın əlindən guya böyük həvəslə ayrılıb və Qərbə tərəf getmək yox, qaçmaq niyyətində, həvəsindədir. Bu da Paşinyanın növbəti qaçışıdır, amma hardan hara qaçdığını, bu qaçışının ağır, acınacaqlı nəticələri sanki bilmir, yaxud bilə-bilə vecinə almır. Görünür, hələ də erməni xalqı onun nə qədər hiyləgər bir avantürist olduğunu tam kəşf edə bilməyib, amma onun növbəti qaçışı daha ağır nəticələrə gətirib çıxaracaq, çünki Rusiya onun bu qaçışını bağışlamayacaq. Azərbaycanın da səbrinin həddi var və düşmənin hiylələrinin, təxribatçı hərəkətlərinin, öhdəliklərdən qaçması kimi yayınmalarının qarşısını alacaq dəmir yumruq yerindədir və hər an işə düşə bilər, hansıki Nikolun da, onunla eyni ağılda olanların da bundan xilas olma şansı artıq heç yoxdur.

***İnam Hacıyev***

TƏHLİL



## Saakaşvilinin bədənində arsen tapılıb?

Bu arada vəkil Şalva Xaçapuridze Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin bədənində arsen aşkarlandığını bildirib. SİA-nın əldə etdiyi məlumata görə, bu barədə gürcü nəşrləri yazıb. Onun sözlərinə görə, tədqiqatın nəticələrini ABŞ-ın aparıcı toksikoloqlarından biri öyrənir. "Biz hələ dırnaq testlərini almamışıq, onları bu günlərdə alacağıq, lakin telefonla məlum oldu ki, araşdırmalar nəticəsində başqa bir maddə, arsen aşkarlanıb".

Saakaşvilinin vəkili deyib bunu. Media Saakaşvili apreldən bəri ictimaiyyət qarşısına çıxmadığını yazır. Onun yaxınları və ailə üzvləri eks-prezidentin həyatının təhlükədə olduğunu deyirlər. Empati Mərkəzinin rəhbəri Mariam Jişkariani iddia edir ki, onun QHT-si tərəfindən aparılan ekspertiza Saakaşvilinin zəhərləndiyini göstərir. O, bildirib ki, ABŞ-da aparılan araşdırmaya görə, Saakaşvilinin bədənində vismut, barium və civə aşkar edilib.

Xatırladaq ki, Saakaşvili 2021-ci il sentyabrın 29-da qanunsuz olaraq Gürcüstana qayıdıb və dərhal saxlanılıb. O, əvvəllər vəzifə səlahiyyətlərindən sui-istifadə maddəsi ilə 6 və 3 il müddətinə azadlıqdan məhrum edilib, eks-prezidentə qarşı daha 3 cinayət işinə şəhər məhkəməsində baxılır.

***Ağasəf Babayev***

## Almaniyada dərman çatışmazlığı...

Almaniyada 299 növ dərman ilə bağlı tədarük çatışmazlığı davam edir. SİA-nın Türkiyənin TRT telekanalına istinadən əldə etdiyi məlumata görə, Almaniya Federal Dərmanlar və Tibbi Cihazlar İnstitutu (BfArM) öz saytında tədarükü hər gün daha da çətinləşən 299 dərmanın siyahısını dərc edib. "BfArM"-dakı yazıda söz-



mövzusu dərmanların tədarükü ilə bağlı çatışmazlığın artmasına Çin və Hindistan kimi ölkələrdən satın alınan məhsulun vaxtında ölkəyə çatdırılmaması səbəb göstərilib.

Qeyd edək ki, Almaniyada çatışmayan dərmanlar arasında antibiotiklər, diabet, xərçəng, immunitetlə əlaqəli dərmanlar və ağrı kəsicilər ilk sırada iştirak edir.

Bild qəzetindəki xəbərdə isə yeni növ koronavirus (Covid-19) epidemiyası səbəbindən fabriklərin bağlanacağı təqdirdə tədarük probleminin daha da pisləşə biləcəyinə diqqət çəkilib. Qeyd edilib ki, ölkədəki apteklərdə hər iki dərman reseptindən biri anbarda yoxdur və tədarükü üçün uzun müddət gözlənilməlidir.

# GÜCLÜ İQTİSADİYYAT, GÜCLÜ DÖVLƏT, GÜCLÜ LİDER



## İLHAM ƏLİYEV:
## "Azərbaycanda mövcud olan sabitlik iqtisadi inkişafımızın əsas amillərindəndir"



“Azərbaycanda uzun illərdir sabitlik mövcuddur və bu, iqtisadi inkişafımızın əsas amillərindəndir”. Bu fikri Prezident İlham Əliyev noyabrın 25-də ADA Universitetində keçirilən ”Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat” mövzusunda beynəlxalq konfransında çıxışında deyib. Dövlət başçısı bildirib ki, güclü iqtisadiyyat, siyasi-iqtisadi sabitlik, hökumətimizin yürütdüyü proqnozlaşdırılan siyasət - bütün bu amillər və çoxsaylı dövlətlərlə sıx münasibətlərin qurulması bugunkü reallığın yaradılmasına kömək edib. Dövlət başçısı onu da bildirib ki, məhz güclü iqtisadiyyat nəticəsində işğaldan azad olunmuş Qarabağımız yenidən qurulur. ”Ağalı kəndi Qarabağın yenidən qurulmasının nümunəvi modeli olacaq”,- deyən Prezident İlham Əliyev bildirib ki, artıq Ağalı kəndinin sakinləri doğma kəndlərində məskunlaşıblar: ”Bu, yalnız Qarabağın işğalı dövründə əziyyət çəkmiş keçmiş köçkünlər qarşısında bizim mənəvi borcumuzun təzahürü deyil. Biz Qarabağın və Zəngəzurun bərpasını bütün ölkənin yenidən qurulmasının modeli hesab edirik”.

### İQTİSADİYYATI GÜCLÜ OLAN DÖVLƏT HƏR ŞEYƏ QADİRDİR

Hər bir xalqın dünyada tanınmasında, uğurlar əldə etməsində və təbii ki, dünyada cərəyan edən qlobal proseslərin öndə gedənlərinə çevrilməsində liderlərin xüsusi əhəmiyyəti mövcuddur. Liderlik amili elə bir şəxsiyyətlərə aid olunur ki, onlar xalqın və dövlətin maraqlarını müdafiə etməklə yanaşı, həm də inkişaf etdirir. Məhz bu kimi önəmli faktorun təhlilini apararkən, Azərbaycanın bu siyahıda birinci olması şəksizdir. Çünki Azərbaycanın inkişaf və tərəqqi, eləcə də, xalqın rifahı faktorunda Azərbaycan Prezidenti İlham Əliyev Liderliyi amili mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Bəli, həqiqətən də bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: ”Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik”. ”Əsl siyasət konkret, real iş görməkdir” - deyən Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində hazırda, ilk növbədə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm addımlar atılmaqdadır. ”Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır” - ölkə başçısının bu sözləri aparılan siyasətin ana xəttidir. Və bu gün Azərbaycan öz gücü, iqtisadi qüdrəti ilə 44 günlük Vətən müharibəsində nəyə qadir olduğunu göstərdi. Mühribədə əldə olunan qələbə ölkədə və regionda yeni reallıqlar və vəzifələr yaradıb. Bu vəzifələri layiqincə yerinə yetirmək üçün iqtisadiyyatımız daha da inkişaf etdirilməlidir.

### 2022-Cİ İL MÜSTƏQİLLİK TARİXİNİN ƏN BÖYÜK ZƏFƏR BÜDCƏSİ

Bəli, bütün bunlar əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır Məhz 44 günlük Vətən müharibəsinin qalib dövlətinin 2022-ci il 30 il əvvəl müstəqilliyini bərpa etmiş bir ölkənin müstəqillik tarixinin ən böyük zəfəl büdcəsidir. Əgər Vətən müharibəsi Azərbaycanın hərbi gücünün təntənəsi oldusa, gələn ilin büdcəsi isə ölkəmizin iqtisadi qüdrətini təcəssüm etdirən reallıqdır. Çünki Azərbaycan son 19 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. 2003-cü ildən bu yana iqtisadiyyatın üç dəfədən çox artması, ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılması bunu təsdiq edən ən vacib faktlardır. Tarixi qələbəmizin təminatçısı olan Azərbaycan Silahlı Qüvvələrinin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, dövlətin milli təhlükəsizliyinin gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə hərbi hissələrin yerləşdirilməsi, bərpa edilmiş dövlət sərhədinin etibarlı qorunması üzrə tədbirlərin maliyyələşdirilməsi növbəti ilin büdcəsinin prioritet xərclərinin vacib istiqamətləri kimi qalacaq. Belə ki, 2022-ci il dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik istiqamətləri üzrə 4 milyard 489 milyon 892 min 429 manat vəsait ayrıldı. 2022-ci ildə müdafiə qüvvələri istiqamətləri üzrə 2 milyard 153 milyon 165 min 727 manat, milli təhlükəsizlik istiqamətləri üzrə 285 milyon 501 min 146 manat, sərhəd xidməti istiqamətləri üzrə 441 milyon 585 min 091 manat, müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar istiqamətləri üzrə 4 milyon 119 min 118 manat, müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər istiqamətləri üzrə 1 milyard 605 milyon 521 min 347 manat, xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə 1 milyard 600 milyon 442 min 500 manat vəsaitin ayrılıb.



### ”GÜCLÜ İQTİSADİYYAT BUNDAN SONRA DA LAZIM OLACAQ”

”Qarabağı və Şərqi Zəngəzuru öz hesabımıza yenidən qurmaq və bütün məqsədlərə çatmaq üçün bizə mütləq güclü iqtisadiyyat bundan sonra da lazım olacaq”. Bunu Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev noyabrın 21-də YAP-ın yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə deyib.”Əlbəttə ki, bu gün hələ də görüləsi işlər çoxdur. İqtisadiyyatımızın şəffaflaşdırılması, xoşagəlməz hallara qarşı mübarizə, kölgə iqtisadiyyatının həcminin əhəmiyyətli dərəcədə azaldılması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığa qarşı daha ciddi mübarizə - bütün bunlar gündəlikdə duran məsələlərdir. O cümlədən dövlət şirkətlərində korporativ idarəetmə üsulunun tətbiq edilməsi bu günün reallıqlarını əks etdirir. Əminəm ki, bu gün aparılan iqtisadi islahatlar - strateji xətt üzrə aparılan bu islahatlar yaxın gələcəkdə də bizə əlavə imkanlar verəcək. O cümlədən Qarabağı və Şərqi Zəngəzuru öz hesabımıza yenidən qurmaq və bütün məqsədlərə çatmaq üçün bizə mütləq güclü iqtisadiyyat bundan sonra da lazım olacaq. Çünki bu, əsasdır. O ölkələr ki, iqtisadi cəhətdən digər ölkələrdən, yaxud da ki, beynəlxalq maliyyə qurumlarından asılıdır, o ölkələr faktiki olaraq müstəqil siyasət aparmaqda çətinlik çəkirlər. Biz isə hər zaman istəyirdik ki, bizim siyasətimiz ancaq xalqımızın iradəsini əks etdirsin. Biz istəyirdik ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməsin və belə bir imkan olmasın. Ona görə iqtisadi güc, iqtisadi müstəqillik bütün başqa sahələrdəki fəaliyyətin təməlidir. Ulu Öndərin yolu ilə gedərək biz, əlbəttə, bu gün dünyada baş verən dəyişikliklərə də çox diqqətlə yanaşırıq, ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edirik. Əminəm ki, növbəti illərdə bu sahədə istədiyimizə nail olacağıq”, - dövlət başçısı bildirib.

Bəli, bütün bunlar əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Və yuxarıda deyilənlərdən hasil olan nəticə ondan ibarətdir ki, iqtisadi müstəqilliyin təmin edilməsi Azərbaycanın tarixi nailiyyətidir. Bu gün heç bir xarici dövlət, heç bir beynəlxalq təşkilat ölkəmizlə diktat dili ilə danışmır və danışa da bilməz. Dövlət başçımızın söylədiyi kimi: ”Əsl siyasət konkret, real iş görməkdir”. Məhz son illər ərzində görülən işlər, açılan istehsal müəssisələri bir daha onu göstərir ki, Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatını düzgün əsaslar üzərində qurmaqla dayanıqlı inkişafı təmin edir, ən əsası dünyaya yeni iqtisadi modeli nümayiş etdirir.

**RƏFİQƏ KAMALQIZI**

# Uğurlarla, qələbələrlə zəngin şərəfli tarixi yol

Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümünə həsr olunmuş yubiley tədbirdə çıxış edən Partiya Sədri, Prezident cənab İlham Əliyev bu münasibətlə bütün Partiya üzvlərini təbrik edərək, Partiyanın yaranma səbəbləri və keçdiyi şərəfli tarixi yoldan bəhs etdi. Ölkə başçısı qeyd etdi ki, bu gün Yeni Azərbaycan Partiyasının yubileyini qeyd edərkən hər birimiz, şübhəsiz, hər birimiz yenə də Ulu Öndərin xatirəsinə ehtiramımızı ifadə edirik. Çünki illər keçdikcə və dünya dəyişdikcə hər birimiz çox gözəl bilirik ki, əgər o vaxt Azərbaycan xalqı Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etməsəydi, ölkəmiz daha böyük fəlakətlə üzləşə bilərdi.



*Ayaz Quliyev*
*YAP Xızı rayon təşkilatının sədri*

Bəli, 1991-ci ilin oktyabrında respublikamız dövlət müstəqilliyinin bərpasına nail olsa da, 1993-cü ilin iyun ayınadək müşahidə olunan hakimiyyət dəyişiklikləri, siyasi qarşı durmalar, sosial-mənəvi böhran insanların sabaha ümidlərini tamamilə qırmış, cəmiyyətdə xaos və anarxiya mühitini dərinləşdirmişdir. Belə ağır şəraitdə respublika ziyaları çıxış yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsində görürdü. Respublika ziyalıları yeni partiyanın yaradılması üçün Ulu Öndər Heydər Əliyevə müraciət etdilər. Bu tarixi müraciət, əslində bütün Azərbaycan xalqının istəyi, arzusu və haqlı tələbi idi. Ulu Öndər ziyalıların müraciətinə müsbət cavab verərək bildirdi ki, "Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması ölkənin ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Belə partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram." Nəhayət, 1992-ci il noyabrın 21-də Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirildi. Ulu Öndər Heydər Əliyev yekdilliklə Yeni Azərbaycan Partiyasının sədri seçildi. Xalqın partiyaya və onun sədrinə olan inam və etimadının nəticəsi idi ki, Yeni Azərbaycan Partiyasının təsis olunmasından dərhal sonra Respublikanın bütün şəhər və rayonlarında təsis konfranslarının keçirilməsinə start verildi və partiyanın yerli təşkilatları təsis edildi.Azərbaycanın son illərdə əldə etdiyi uğurlar, qazandığı nailiyyətlər Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan partiyasının fəaliyyətilə bilavasitə bağlıdır. Ulu Öndər Heydər Əliyevin missiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümummilli Liderin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası böyük gücə çevrilib, onun 800 minə yaxın üzvü var. Bu üzvlərin böyük hissəsi gənclərdir ki, onlar da Azərbaycanın tarixi Zəfərinin qazanılmasında müstəsna rol oynadılar. Əsası məhz Ulu Öndər tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti yekunda öz müsbət nəticəsini verdi. 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, Ermənistanın 30 illik işğalına son qoyuldu, xalqımız adını tarixə qalib xalq kimi yazdırdı. Beləliklə, Ulu Öndərin vəsiyyəti yerinə yetirildi. Cənab Prezidentin qeyd etdiyi kimi: "Cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi."

Şübhə yoxdur ki, 30 il ərzində möhtəşəm zəfərlər, qələbələr qazanmış ümumxalq partiyası olan YAP cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəkdə də qarşısında duran strateji əhəmiyyətli vəzifələri uğurla yerinə yetirməklə ölkəmizin dayanıqlı və dinamik inkişafında aparıcı rol oynayacaq.

# "Rusiyanın gizli planları var"

**"Rusiya Ukrayna müharibəsi artıq 10-cu aydır ki, davam edir. Rusiya müharibəni bilərəkdən bu şəkildə aparır. Çünki sürünən müharibə həm Rusiyanın öz imkanlarını yoxlamağa şərait yaradır, həm də Ukraynanı çökdürmək siyasəti yürüdür". Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.**

Onun sözlərinə görə görünən odur ki, Rusiya hansısa müəyyən dərin dövlət adamları ilə razılaşıb: "Burada hədəf Ukrayna deyil, Avropa İttifaqıdır. Bu müharibə ən azı 1 ildən çox davam edəcək. Əsas məqsəd Aİ-ni siyasi və iqtisadi cəhətdən çökdürməkdir. Çünki bu qış Aİ üçün yeni bir imtahandır. Bu sınaqdan isə Aİ-nin çıxması həddindən artıq çətindir. Mütləq bu ittifaqda qarşıdurma olacaq. Həmçinin, tərk etmələr istisna olunmur.

Aİ-nin idarəetməsində çaşqınlıq var. İqtisadi cəhətdən Avropanın sükanı Almaniyanın əlindədir, siyasi cəhətdən də Fransanın əlində idi. Amma Fransa yoxdur. Emmanuel Makrona ABŞ-ın maraqlarının icrası ilə məşğul olan adamdan başqa bir söz demək olmur. O da bu işi üz-gözünə bulaşdırdı. Makronu hakimiyyətdən uzaqlaşdıra bilərlər. Qarşıda duran əsas fikir ondan ibarətdir ki, Rusiya Ukrayna müharibəsi hələ davam edəcək".

Cümşüd Nuriyev sözlərinə belə davam edib: "Rusiyaya Dneprin sağ sahili lazım deyil. Xersondan da o bilərəkdən çəkildi. Rusiyanın gizli planları var. Zelenski də baymayaraq ki, 4 ildir prezidentdir, amma hələ də peşəkarlıqdan çox uzaqdır. Onun populist çıxışlardan başqa əlindən heç bir şey gəlmir. Ukrayna kimi dövlət yavaş-yavaş dağılır.

Putinə belə sürünən müharibə sərf edir. Rusiyanın bu şəkildə çökəcəyi də inandırıcı görünmür. Qərb üçün Rusiyanın indiki vəziyyəti daha sərfəlidir. Çünki onun əli ilə həm Avropa çökdürülür, həm də Rusiya öz iqtisadi cəhətdən geri qalır. Görünən odur ki, bu çox ssenarili bir siyasi oyundur. Qurban isə Rusiya deyil, Ukraynadır. Rusiya burada yanlız üçüncü qurban ola bilər".

*Ayşən Vəli*



# Moped idarə etmək üçün sürücülük vəsiqəsi tələb olunacaq



Azərbaycanda moped idarə etmək üçün sürücülük vəsiqəsi tələb olunacaq. SİA-nın məlumatına görə, bu barədə məsələ "Yol hərəkəti haqqında" Qanunda dəyişiklikdə əksini tapıb. Təklif edilən dəyişikliyə əsasən, konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan bütün nəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınması və dövlət qeydiyyat nişanı ilə təmin edilməsi tələbinin müəyyənləşdirilməsi təklif edilir.

Eyni zamanda, təqdim edilən digər dəyişikliyə əsasən, nəqliyyat vasitəsinin rəngi dəyişdirildikdə onun 10 gün ərzində dövlət qeydiyyatından keçirilərək uçota alınması tələbi də nəzərdə tutulur. Qeyd edək ki, qanuna dəyişiklik Milli Məclisin noyabrın 29-da keçiriləcək plenar iclasının gündəliyinə daxil edilib.



MƏTANƏT

# Çantası özündən ağır...

Söhbətin kimdən getdiyini müəyyən edənlər az deyil yəqin ki... O adamlar daha tez müəyyən edər ki, onlar bu işin içərisindədirlər. Hər gün həmin çantaları əllərinə alırlar və ağırlığını da yaxşı hiss edirlər.

Mətləbdən bir qədər kənarlaşaq. Həmişə düşünürdüm ki, İlahi, görəsən bu uşaqların nə üçün hər birinin yanında bir valideyn də onunla birlikdə məktəbə gedir. Axı hamımız yaxşı xatırlayırıq ki, bizim dövrümüzdə məktəbə getdiyimiz vaxt valideynlərimiz cəmi bir-iki dəfə bizimlə məktəb gedərdi, o da yolu bizə tanıtmaq üçün. Ondan sonra özümüz gedib, özümüz də gələrdik. Valideynlərimiz də öz iş-gücləriniin ardınca gedərdilər. Ta hər gün biri bizə yol yoldaşı olmazdı.

İndi isə bu mənzərə dəyişib. Bunun iki səbəbi var. O səbəblərdən elə hər ikisi də dəhşətlidir. Uşağın yanında valideynin onunla birlikdə məktəbə getmə səbəblərindən birincisi zəmanənin dəyişməsi kimi ifadə olunur. Valideynlər düşünürlər, həm də haqlı olaraq düşünürlər ki, indi əvvəlki illər deyil. Uşaq məktəbə tək gedə bilməz. Onun üçün təhlükə yarana bilər. Bunu hər birimiz anlayırıq. Bəli, küçə-baca başı xarab, özünə hörməti olmayanlarla doludur.

İkinci dəhşətli səbəb isə uşaqlarımızın çantalarının özlərindən ağır olmasıdır. Bu səbəbdən də onlar çantalarını özləri daşıya bilmir, valideyn də əlacsız qalıb hər gün onlarla bərabər məktəblərə getməli olurlar.

Gələk səbəblərə. Səbəblər ondan ibarətdir ki, müasir təlim sisteminə son illər o qədər yeniliklər daxil olub ki, çantalar da istər-istəməz ağırlaşmağa başlayıb. Kitablar, yazı dəftərləri, testlər, test tapşırıqları, daha nələr, nələr onunla nəticələnib ki, çantalara da ağırlıq düşüb, uşaqlara da. Uşaqların beyni bu qədər ağırlığı harayadək qaldıracaq, bu, məsələnin digər tərəfidir. Hazırda onların fiziki sağlamlığına mənfi təsir göstərəcək çantalardır söhbətimizin mövzusu. O çantalar ki, onları daşıyarkən uşağın bir tərəfinin tamamilə əyildiyini müşahidə edirik. Deməli, onda fiziki qüsur yaranmaqdadır.

Bu günlərdə 3-cü sinif şagirdinin çantasını əlimə almalı oldum. Bütün bu qənaətlərə ondan sonra gəldim. Dedim, hə... Anladım nə üçün hər uşağın yanında bir valideynin də məktəblərə yollanmasını və dərsin bitməsinə bir neçə dəqiqə qalmış məktəblərin qarşısındakı izdihamı. Deməli, valideynlər həm də uşaqlarının çanta daşıyanlarıdır. Bu səbəbdən də şagirdin evi ilə məktəb arasındakı məsafə bir neçə kilometr və ya metr olsa da, valideyn özü hökmən onunla birlikdə məktəbə getməli və gəlməlidir. Çantanı aparmalı və gətirməlidir.

Yenə yuxarı sinif şagirdlərinin bir qədər gücü var, bu aşağı sinif şagirdlərinə o qədər yazığım gəlir ki... Düşünürəm ki, bunlar böyüyüb həkim, müəllim, mühəndis və sair sənət, peşə sahibi olanadək bir tərəfləri əyiləcək. Fiziki qüsurla ali təhsil müəssisələrinə yollanacaqlar. Orada da ki...

Elə bu arada Yaponiyada 10 yaşa- 4-cü sinfə qədər uşaqların heç bir imtahan verməmələrini, bu müddət ərzində onların kiçik testlərdən keçmələri haqqında məlumatı xatırlayıram. Hesab olunur ki, məktəbdə ilk 3 ilin məqsədi uşaqları biliyə görə mühakimə etmək deyil, onlara gözəl ədəb öyrətmək və xarakterlərini inkişaf etdirməkdir. Uşaqlara başqa insanlara hörmət etməyi, heyvanlara və təbiətə qarşı mehriban olmağı öyrədirlər. Onlara həmçinin səxavətli, mərhəmətli və həssas olmaq kimi ülvi keyfiyyətlər də aşılanır. Bundan əlavə, uşaqlara dözümlülük, özünü idarə etmə və ədalət öyrədilir. Təbii ki, 4-cü sinifdən sonra da elm öyrənməyə başlayır uşaqlar.

Lakin biz nə edirik? 1-ci sinifdən Azərbaycan dilində hələ də çənəsi söz tutmayan uşağı xarici dilləri öyrənməyə vadar edirik. Hələ heç nəyi anlamayan uşaqları digər fənlərlə yükləyirik. Bir fənnin də olur bir kitabı, bir dəftəri, bir testi, bir də qiymətləndirmə testi, əlavə testi... Beləliklə, biz uşaqları yüklədikcə, çantalar da yüklənir. Odur ki, körpələr bu çantaları daşıya bilmirlər. Valideyn də məcbur qalıb uşağı ilə birlikdə yenidən məktəbliyə çevrilir.

Yaponiyada uşaqlar ədəb qaydalarını öyrənəndə biz elm üzərində baş sındırırq. Onlar 4-cü sinifdən sonra elmləri öyrənməyə başlayanda, biz artıq birinci sinifdə bütün elmlərin açarını əlimizə alırıq. Lakin nəticə necə olur? Biz hələ də yaponların ixtiraları qarşısında heyrət edirik...

# “İran və ya Ermənistan layihələrə əngəl törədə bilməz”

“Azərbaycanın son illərdə regional, o cümlədən də Şərq-Qərb, Şimal-Cənub istiqamətli əməkdaşlıq əlaqələrinin inkişafındakı rolu əvəzedilməzdir. Xüsusilə, 44 günlük Vətən müharibəsində qazanılmış Zəfər yeni dövrdə iqtisadi əməkdaşlıq potensialının daha da gücləndirilməsinə yol açıb. Bu gün Çindən başlayan bu yol məhz Azərbaycan vasitəsilə Qərbə doğru uzanmaqdadır. Təbii ki, Azərbaycanın yeni geosiyasi nizamda tutduğu yer illərdir ki, yürüdülən düzgün siyasi kursa əsaslanır. Ölkə Prezidentinin yürütdüyü uğurlu siyasi, iqtisadi, xarici siyasət kursu ölkəmizin beynəlxalq arenadakı hazırki regional lider rolunu və yerini müəyyənləşdirib”. Bu fikirləri S?A-ya açıqlamasında Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova deyib.

Partiya sədrinin fikrincə, bu kimi qlobal layihələrin reallaşması üçün ilkin növbədə daxili sabitlik amili mövcud olmalıdır. Orta Dəhlizin tam istismara verilməsi məqsədinə nail olmaq üçün təhlükəsizlik və iqtisadi potensial ən vacib şərtlərdəndir. ”Prezident İlham Əliyev ”Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat” mövzusunda keçirilən beynəlxalq konfransdakı çıxışında da bildirdi ki, istənilən genişmiqyaslı layihənin icrası üçün önəmli elementlərdən biri sabitlikdir. Azərbaycanda uzun illərdir ki, sabitlik var və bu, bizim iqtisadi inkişafımızın əsas amillərindən biridir. İndi Azərbaycanın beynəlxalq arenada oynadığı rol da, daxili siyasətimizdəki sabit inkişafın sayəsində əmələ gəlmişdir. Eyni zamanda, illərdir ki, daxili iqtisadi mühitin inkişafı istiqamətində atılan addımlar yeni dövrdə Azərbaycana mühüm üstünlüklər qazandırıb. İllərdir ki, yeni infrastrukturların qurulması yönündə əsaslı işlər görülür. Cənab Prezident bildirdi ki, Azərbaycan infrastrukturun inkişafına uzun illər ərzində sərmayə yatırır. İndi dəmir yolları əlaqələrimizə, yol infrastrukturumuza baxdıqda biz Azərbaycanda hər şeyin hazır olduğunu görürük. Dövlət başçısının qeyd etdiyi kimi, beş il bundan əvvəl biz tərəfdaşlarımızla birlikdə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin açılışını etdik. İndi isə ölkəmizdən keçən artan yük həcmlərini gördükdə biz Bakı-Tbilisi-Qarsın Gürcüstan hissəsinin genişləndirilməsinə sərmayə yatırmağa başladıq. Bu layihə ölkəmizə 100 milyon ABŞ dollarından daha baha başa gələcək və biz bu layihəni bir il və ya ola bilsin, bir il yarım müddətində bitirməyi planlaşdırırıq. Təbii ki, bu kimi amillər Azərbaycanın geosiyasi iqtisadi əməkdaşlıq platformasındakı fəaliyyətinə mühüm üstünlüklər qazandırmış olur”, - deyən partiya sədri onu da vurğulayıb ki, Şimal-Cənub dəhlizi kimi digər nəqliyyat layihələri də Şərq-Qərb dəhlizinə əsaslı dəstək və uğur qazandıracaq. Azərbaycanın hər iki dəhlizin iştirakçısı olmasının səbəbləri isə ölkəmizin bu dəhlizlərlə bağlı əksər nəqliyyat və logistika infrastrukturunun hazır olmasından irəli gəlir. Artıq Azərbaycan yeni mərhələdə ən müasir nəqliyyat-kommunikasiya sistemləri inşa etməkdədir. ”Artıq Azərbaycan dəniz vasitəsilə daşımaların həyata keçirilməsində mühüm rol oynamaqdadır. Prezident İlham Əliyev bildirdi ki, nəqliyyat-kommunikasiya layihələrinin nisbətən yeni elementi olan dəniz ticarət limanımız 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək. Çünki buna zərurət var, çünki dünyada yeni geosiyasi vəziyyət mövcuddur və Azərbaycandan daha çox yüklərin daşınmasına zərurət var. Bu gün dünya yeni iqtisadi çağırışların astanasındadır. Yeni iqtisadi nizamda özünəməxsus yer tutan Azərbaycan Xəzər dənizinin şərq sahillərindən yükləri öz ərazisindən nəql etmək potensialına malikdir. Təbii ki, bunun üçün yeni tankerlər, bərələr və yük gəmiləri lazımdır. Dövlət başçısının da qeyd etdiyi kimi, Bakıda gəmi infrastrukturu və yeni gəmiqayırma zavodlarının olması ölkəmizin mövcud istiqamətdəki potensialını artırır. Fəaliyyət göstərən nəqliyyat marşrutları isə Xəzər regionunun bütün ölkələrinin inteqrasiya imkanlarını artıracaq. Bu gün ölkəmiz Türkmənistandan daxil olan yüklərə vacib tranzit imkanı yaradır. Hətta Bakı Beynəlxalq DənizTicarət Limanında Türkmənistandan olan yüklər üçün xüsusi yer ayrılıb. Türkmən qazı ilə bağlı svop əməliyyatları başlanıb”, - deyən Ə.Kazımovanın fikrincə, Azərbaycanın Avropanın enerji təminatında iştirakı ilə bağlı çoxvektoru siyasət yürütməsi ölkəmizə böyük uğurlar qazandırıb. Bu gün Azərbaycan Avropanın enerji təminatında mühüm təminatçı qismində iştirak edir: ”Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik boru kəməri iki ildən az müddət bundan əvvəl tamamlanıb. Bununla belə tələbat günü-gündən artır. Cənab Prezident də öz çıxışında vurğuladı ki, artıq bu gün biz həcmin iki dəfə - 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər artırılmasına tələbatı görürük. Bunun üçün bütün pay sahiblərinin konsolidasiya olunmuş mövqeyi və sərmayəsi lazım olacaq. Eyni zamanda, Azərbaycan TAP-da yalnız 20 faiz paya sahibdir. TANAP-ın 16 milyard kubmetrdən 32 milyard kubmetrə genişlənməsi gözlənilir. Bunun üçün türkiyəli həmkarlarımızla tranzitlə bağlı razılaşmalarımız olmalıdır. Bu olmadan Avropa istehlakçılarının və həmçinin türkiyəli istehlakçıların artmaqda olan ehtiyaclarını ödəmək mümkün olmayacaq. Qeyd edildiyi kimi, Azərbaycan özünün enerji siyasətini şaxələndirməklə mühüm üstünlüklər əldə edir. Bu ilin iyul ayında Azərbaycan Avropa Komissiyası ilə təchizatı iki dəfə artırmaq üçün Anlaşma Memorandumu imzalayıb. Azərbaycanın enerji potensialı da kifayət qədər zəngindir. Qarşıdakı illərdə istismara verilməsi planlaşdırılan yeni qaz yataqlarımız mövcuddur”.



ASRP sədri onu da əlavuə edib ki, Azərbaycan bu gün yüksək kommunikasiya-nəqliyyat imkanlarına malikdir. Ölkəmiz Şərq-Qərb, Şimal-Cənub dəhlizləri, dəmir yolu və ya magistral yol, hava limanları, donanma, yaxud dəniz limanı vasitəsilə bu imkanlarını daha da genişləndirib. Bununla belə, dəhliz marşurutu ölkələrinin hər birinin də bu kimi hazırlıq səviyyəsinə malik olması mühüm şərtdir. Təbii ki, burada təhlükəsizlik amili də vacib elementlərdən biri kimi çıxış edir. Bəzi region ölkələrinin - məsələn, İranın və ya Ermənistanın bu prosesə manne olmaq cəhdləri heç bir işə yaramayacaq: ”Dövlət başçısı bildirdi ki, İran və ya Ermənistan regionun nəqliyyat-infrastruktur layihələrinə əngəl törədə bilməz. Ermənistanın regionda nə coğrafi, nə başqa bir imkanı, yaxud üstünlükləri yoxdur. O, faktiki olaraq dalana dirənmiş ölkədir, Ermənistandan heç bir nəqliyyat marşrutu keçmir. Onların nəqliyyat şəbəkəsi köhnəlib və onlara məxsus deyil. İran isə özü regional kommunikasiya layihələrində maraqlı olmalıdır, ona görə ki, bu layihələr heç kimə qarşı deyil, hamının xeyrinədir. Azərbaycanın regionda yaratdığı yeni əməkdaşlıq platforması iqtisadi imkanların genişləndirilməsinə əsaslı zəmin yaradıb”.

**Banuçiçək Hüseynli**

ARAŞDIRMA

# “Mamauşağı” hansı kişilərə deyilir?

**Ana və oğul arasındakı münasibət ana bətnində başladığı üçün bu münasibət uşaq üçün çox xüsusidir. Yenə uşağın həyatının ilk illərində etibar etdiyi və nümunə götürdüyü insan anadır. Oğlan uşağının gələcəkdə ”ana quzusu” olmamağı üçün düzgün tərbiyə vacibdir. Ananın oğlunu tək böyütməsi və uşağın həyatında güvəndiyi, örnək götürdüyü şəxs olmaması xüsusilə təhlükəlidir. Amma övlad analı-atalı normal ailədə böyüsə belə, pis yola qurşana bilər.**

Uşaqlar çox şeydən xəbərdardırlar. Ona görə də qarşılıqlı münasibətlərdə həmişə hörmətli olmaq vacibdir. Valideynlər ev işlərini bölüşməlidirlər ki, oğlan uşaqları da gələcək ailələrində bunları örnək götürsün. Əks halda oğlanların beynində qadınların ancaq ev işləri olacağı mənzərəsi yarana bilər. Bu cür düşüncəni anaların hər şeyi oğullarının arxasınca etməməsi azalda bilər. Oğlanlar müəyyən yaşa çatdıqda ev işləri ilə bağlı vəzifələri də öz üzərinə götürməlidirlər.

Burada önəmli olan, başlanğıcda ev işləri görməməyə müqavimət göstərən uşağa qarşı söz sahibi ola bilməkdir. Uşaqlara hər iki ev işi maddi və ya pul mükafatı ilə deyil, tərif və təqdirlə sevdirilməlidir.

### Qadınlar ”mamauşağı” oğlanla necə ortaq yolu tapa bilər?

Sevgilisi və anası ilə münasibətlərində tarazlığı saxlaya bilməyən, anası ilə normaldan artıq münasibətdə olan, anasının onlara körpə uşaq kimi yanaşmasına fikir verməyən kişilərə ”ana quzuları” deyilir. Bu tip kişilərlə münasibət qurmağa çalışmaq həmişə çətindir. Əgər belə bir kişi ilə tanış olmusunuzsa, sizə ilk tövsiyəmiz təbii ki, ondan uzaqlaşmalısınız. amma bu insanla münasibətə başlamışsınızsa və artıq gec olduğunu düşünürsünüzsə, hazırladığımız məsləhətə qulaq asa bilərsiniz.

### Sevgilinizlə anası haqqında danışmamağa çalışın

Təbii ki, belə bir vəziyyətdə susmağa çalışmaq çox çətin olacaq, amma bu problemi sevgilinizlə dava etmədən həll etmək istəyirsinizsə, onun anası haqqında mümkün qədər danışmamağa çalışmalısınız. Xüsusilə diqqətli olmalısan ki, anası haqqında qeybət etməyəsən. Bu vəziyyət ”ana quzusu” kişiləri çox qəzəbləndirə bilər. S?A mövzu ilə bağlı araşdırma aparıb. Kişinin ana quzusu olduğunu göstərən əlamətlər:

”Ana quzusu” sözünün mənası ”çətinliyə öyrəşməmiş, diqqətlə böyüdülmüş” deməkdir. Bu söz daha çox hələ formalaşmamış, anadan asılı kişilər üçün istifadə olunur.

1. ”Mamauşağı” oğlanlar tək yaşaya bilmir. Onlar yetkin yaşda olsa da, ailəsi ilə birlikdə yaşamağa davam edir. Söhbət yalnız maddi məsələlərdən və xüsusi səbəblərdən getmir. Əlbəttə, ”mamauşağı” kişilərin bəzilərinin ayrı evləri var. Bu tip kişilər özünüidarədən kifayət qədər uzaqdır.



2. Sanki heç yetkin deyil. Əbəs yerə ana quzusu deyilmir. Baxırsan ki, oğlanın 30 yaşı var, amma heç böyüməyib. Bu tip oğlanlar xüsusən də anasının yanında olduqda uşaq kimi davranır.

3. Bütün qərarları anası verir. Biz hamımız zaman-zaman analarımızdan məsləhət alırıq. Üstəlik bunu həm 20, həm də 50 yaşlarında olsaq belə edirik. Bu tip kişilərin anası təkcə öz işini görmür, həm də onun adından bütün qərarları verən şəxsdir.

4. Bu tip kişilərin anasının fikirləri heç vaxt şübhə altına alına bilməz. Onların sözlərinə görə, anaları həmişə hər şeyi düzgün edir.

5. Anası hər şeyi bilir. Bu tip kişilərin ən əsas özəlliyi xanımı ilə olan ən kiçik mübahisədə edəcəyi ilk iş anasını çağırmaq olacaq. Bu, o deməkdir ki, anası oğlunu incitdiyiniz və ya ona qarşı çıxdığınız bütün məqamlardan xəbərdardır.

6. O, sizdən anası kimi olmağınızı gözləyir. Onun üçün ideal qadın anasıdır. Bütün qadınları onunla müqayisə edir, təəssüf ki, sizi də. Bu yemək bişirmə tərziniz kimi kiçik şeyləri tənqid etməklə başlayır, lakin bu müqayisə karyeranıza və hətta valideynliyə qədər uzana bilər.

Son olaraq qeyd edək ki, ”mamauşağı” kişilər gələcək ailə həyatında ciddi problemlərlə rastlaşır. Belə ki, onların əksəriyyəti normal ailə idarə edə bilmir. Ailəsində olan ən xırda problemdə analarına üz tutur, ona qaçıb sığınır. Bu isə ailə başçısı üçün yaxşı bir şey deyil.

**Ayşən Vəli**

SİYASİ | RAKURS+ÖZƏL

# Paşinyan-Makron oyunbazlıqları: Şarl Mişel hansı addımını atmalıdır?






**Beləliklə, Paşinyan-Makron bacılıq tandemi səbəbindən 2022-ci ilin dekabr ayının 7-də planlaşdırılan Brüssel görüşü ləğv olundu. Əslində, həmin reallıq Paşinyan-Makron cütlüyünün Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelə qarşı demarş hesab edilə bilər. Belə çıxır ki, Paşinyan bacısı Makrona şikayət edib ki, Mişel erməniyönümlü mövqedə dayanmaq fikrində deyil.**

Və əgər bütün bunlara Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin Bakıda səsləndirdiyi bəyanatının Ermənistanı narahat etdiyini də əlavə etsək, eləcə də Avropadakı ermənipərəst qrupların ona qarşı hücumlarını da xatırlasaq həm də belə nəticə hasil edə bilərik ki, Paşinyan-Makron ikiliyinin Mişelə qarşı demarşları artıq sistemli xarakterə keçid alıb.

Belə olan halda sual yaranır: bəs Aİ bu kimi məsələlərdə hansı addımları atmalıdır? Daha dəqiq desək, ermənilərin nankorluğuna qarşı qərar nə ola bilər? Azərbaycan zatən Paşinyanın həyasızlıqlarına, nankorluqlarına, yalançılıqlarına və riyakarlıqlarına, eləcə də prinsipiallıqdan kənar olmasına alışıqdır.

Yadınızdadırsa bir müddət əvvəl Avropa İttifaqı tərəfindən Ermənistana maliyyə paketi ayrıldı və bu paket Azərbaycana ayrılan paketdən təxminən on dəfə çox idi. Hansı ki, məhz Azərbaycanın ərazisində müharibə gedib, Azərbaycanın əraziləri dağıdılıb, talan edilib, Azərbaycan vətəndaşları öz yurd-yuvalarından məcburi köçkünlərə çevrilib və s...

Halbuki Ermənistan dəfələrlə öz riyakar üzünü avropalılara göstərib. Məsələn, Ermənistan zamanında assosiativ razılaşmaya imza atmamışdı, hansı ki, buna qədər sözügedən prosesə qoşulacağını bəyan edirdi. Bu da son deyil. Məsələn, Avropa Xalq Partiyasının sıralarında Serj Saqsyanın Respublika partiyası da var və bu partiya açıq şəkildə nasizim və njdeçilik ideologiyası üzərində fəaliyyət göstərir.

Ayrıca olaraq Avropanın sosial-demokratlar cinahında, yəni Sosinterndə də ermənilərin Daşnaksyutyun terrorçu təşkilatı "partiya" adı altında fəaliyyət göstərir, özü də ikinci sıralamda yer almaqdadır. Bütün bunlar öz yerində...

Beləliklə, Paşinyan-Makron cütlüyü Şarl Mişel-Klaar faktoruna qarşı elə addım atdılar ki, həmin addım bütövlükdə Avropa İttifaqının vasitəçiliyini heçə endirir.

Mümkün ehtimallar isə belədir, hətta iki variant ola bilər:

- Aİ ya özünün "balance approach" mövqeyini saxlamaqla Ermənistanın və Fransanın aqressiv və nankor siyasətinə göz yummaqla baş verməsi kifayət qədər mümkün görünən yeni eskalasiyalara görə məsuliyyət daşıyacaq

- Ya da Paşinyanla Makronun oyunbazlıqlarına sərt mövqe nümayiş etdirməklə şərt irəli sürüb tələblər qoymalıdır - ya inadkarlıqdan, prosesi pozmaqdan əl çəkməli, ya da Ermənistana ayrılan maliyyə paketi ləğv olunmalıdır.

Nəzərə alsaq ki, Aİ daha əvvəlki illərdə elə də ciddi prinsipiallığı ilə seçilməyib, bu zaman ikinci ehtimalın baş tutmasını gözləməyə dəyməz. Etiraf edək ki, Aİ-nin mərkəzi strukturları həm Avropa Parlamentindən, həm də Makronun təsirlərindən asılı vəziyyətdədirlər. Bəs onda daha hansı addımlara gedilməlidir?

Şarl Mişel açıq-aydın çətin situasiyadadır və burada Mişeli dəstəkləyən ABŞ-ın da rəsmi mövqeyi rol oynayır. Hansı ki, məhz Paşinyan rəsmi Bakıdan fərqli olaraq bəyan etmişdi ki, o Rusiyanın sülh razılaşması təklifini 100% dəstəkləyir. Üstəlik, erməni tərəfi regional, Cənubi Qafqaz qarşılıqlı formatına tərəf getmir, Azərbaycan isə həmin formata ən yüksək səviyyədə təşəbbüs göstərir. Beləliklə, Mişel ya da ABŞ artıq yekun qərarlarını müəyyən etməli və ölkələrində var-gəl edən ermənipərəst ayağısürüşkən siyasətçilərə sərt cavab verməlidirlər. Onu da anlatmalıdırlar ki, Ermənistan rəhbərliyi riyakarlıq edir, aqressiya tərəfdarı olaraq çıxış edir, danışıqlarda isə etibarsızlığı ilə seçilir. Əks halda, bu və ya digər yollarla özlərini təsdiq etmək istəyən hər kəs öz uğursuzluğuna imza atmalı olacaq, hər şey 44 günlük müharibədən sonrakı ilk vəziyyətə geri dönəcək. Belə olan vəziyyətdə isə artıq günah Bakıdan gedəcək və Azərbaycan zərurətdən yaranan müvafiq, lazımi addımlarını atması ilə qarşıda dayanan həll edilməmiş problemləri özü həll edəcək.

*Rövşən RƏSULOV*



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Simonyan etiraf edir ki, Azərbaycan İrəvanı geri almalıdır!

**Nikol Paşinyan hökumətinə yaxınlığı ilə seçilən erməni hüquqşünası Taron Simonyan iddia edib ki, 44 günlük İkinci Qarabağ müharibəsinə son qoymuş 2020-ci ilin 10 noyabr üçtərəfli bəyanatı guya Ermənistan rəhbərliyinə təhdidlər altında imzaladılıb. Onun sözlərinə görə, əgər Ermənistan gələcəkdə müəyyən siyasi və diplomatik resurslarını konsolidasiya edə bilsə, onda həmin sənədin hüquqi cəhətdən mübahisəli olduğunu iddia kimi irəli sürmək mümkündür. Yəni ona görə ki, dövlət rəhbərliyi bu sənədi təhlükə altında qalmaq qorxusu ilə imzalamağa məcbur olub.**

Təbii ki, batmaqda olarkən saman çöpündən yapışmağa cəhd edən rəsmi İrəvan irəli sürülən bu kimi sərsəm iddialar vasitəsi ilə indi də hüquqşünaslarına arxalanaraq növbəti oyununu qurmağa çalışır. Ancaq həmin iddia irəli sürülərkən digər faktlar nədənsə unudulur. Belə ki, 44 günlük müharibə zamanı Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə (!) Ermənistanın baş naziri Nikol Paşinyana təkliflər verib ki, əgər o erməni ordusunun işğal altındakı ərazilərdən çıxmasına razılıq verərsə, bununla bağlı qrafik təqdim edərsə, danışıqlar masasına oturarsa rəsmi Bakı dərhal hərbi əməliyyatları dayandıracaq. Ermənistan isə həmin təkliflərdən imtina etdi. Məgər bu təhdiddir?

Yaxud, sülh razılaşmasını imzalamaq, sərhədlərin delimitasiyası və demarkasiyası prosesini başlatmaq, nəqliyyat-kommunikasiya marşrutlarının hərəkət edəcəyi prinsipləri birgə müəyyənləşdirmək və həmin marşrutlardan birgə istifadə etmək təklifini irəli sürmək nə zamandan təhdid kimi qələmə verilib?

Əgər erməni tərəfi razılaşmanı imzalamaq, daha sonra isə ondan imtina etməyi mümkün hesab edirsə, burada da kökündən yanılır. Yəni Azərbaycanın erməni siyasətçilərini, hüquqşünaslarını və s. başbilənlərini susdurması üçün müxtəlif vasitələri qüvvədədir!

Qaldı ki, Simonyanın sərsəm iddialarına, bu zaman həmin şəxsə bəzi tarixi faktları da xatırlada bilərik. Misal üçün, 1918-ci ilin 29 may tarixində Azərbaycanın milli qüvvələrinin Antanta (onun tərkibinə Rusiya İmperiyası, Fransa, Böyük Britaniya daxil idi və onların müttəfiqləri qismində ABŞ, İtaliya, Ruminiya, Kanada, Avstraliya və Yeni Zellandiya çıxış edirdilər) tərəfindən ciddi təhdidlər və təhlükələr altında qaldığı bir zamanda Azərbaycanın Milli Şurası Ermənistan dövlətinin qurulması üçün əzəli və tarixi İrəvan mahalını güzəştə verməyə məcbur oldu. Əgər Taron Simonyan "təhdid", "təhlükə" və s. ifadələrini işlədirsə, reallıqda təhdid və təhlükənin nə olduğunu bu danılmaz faktdan hasil etməlidir. Və onda erməni hüquqşünasının məntiqi ilə Antantanın qəbul etdiyi həmin sənəd dəyişdirilməlidir!

Paşinyanın Simonyan və s. kimi adamlarını ortalığa atması ilə guya hazırkı zamana qədər qəbul olunmuş qərarları öz təbirincə "ləğv etmək" istəyi isə yalnız zibil qutusuna atılacaq boş bir iddiadır. Və ən əsası - rəsmi İrəvan axır ki, anlamağa məhkumdur: qalibin statusu məğlubun statusundan çox, hətta lap çox üstündür və həmin məntiq daim qüvvədə qalıb. Yox, əgər Paşinyan həqiqətən də üçtərəfli bəyanatdan imtina etmək barədə düşünürsə, onda hazırlaşsın, güclü və qüdrəli Azərbaycan zamanında onun ərazilərinə təhdid yaratmış Antanta razılaşmasını pozaraq növbəti tarixi ədaləti bərpa etməyə gəlir!

# "Rusiya Ermənistanın tələbinə baxmayaraq Azərbaycana qarşı çıxmayacaq"

**Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya, Qafqaz və Ural-Volqaboyu Tədqiqat Mərkəzinin elmi işçisi, Avrasiya İşgüzar Əməkdaşlıq Təşkilatının sədri, tarix elmləri namizədi Aleksandr Vorobyov "Caliber" analitik mərkəzinə müsahibəsində regionda gedən proseslər və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı fikirlərini bildirib. Müsahibəni oxuculrımıza tqdim edirik.**

***- Sizcə, Rusiya Cənubi Qafqazda hansı siyasət yürütmək niyyətindədir?***

- Müasir Rusiyanın Cənubi Qafqaz siyasəti balanslaşdırılmışdır. Məqsədləri bəllidir- həm regionun özündə, həm də Cənubi Qafqaz ölkələri ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlığı təşviq etməkdir. Eləcə də nəqliyyat dəhlizlərinin inkişafı. Ümumiyyətlə, belə siyasət bütün tərəflər üçün sərfəlidir- bunda hamı qalib gəlir. İqtisadi firavanlıq və sabitlik bütün tərəflərin maraqlı olduğu bir şeydir. Rusiya üçün ən mənfi ssenari böhran, müharibə, regional qarşıdurmanı qızışdırmaqdır. Bütün bunlar Rusiyanın maraqlarına uyğun deyil, eyni zamanda qeyri-regional oyunçuların da maraqlarına uyğun ola bilər. Ona görə də Rusiyanın Cənubi Qafqaz siyasəti balanslaşdırılmış mövqelərə əsaslanır.

***- Rusiyanın Türkiyə ilə münasibətlərində hansı dinamika gözlənilməlidir?***

- Hesab edirəm ki, həm müsbət, həm də mənfi istiqamətdə hər hansı keskin irəliləyişləri, sürüşmələri gözləmək lazım deyil. Çox güman ki, bu gün ikitərəfli münasibətlərdə şahidi olduğumuz siyasət gələcəkdə də davam edəcək. Yəni, bu, iqtisadi əməkdaşlıqdır və əsas geosiyasi aspektlərdə, məsələn, Ukraynada, Suriyada, kürdlər bağlı məsələdə tərəfdaşlıqdır. Ümumiyyətlə, Moskva və Ankaranın ikitərəfli dialoq üçün geniş diapazonu var. Buraya təhlükəsizlik, logistika və iqtisadiyyat da daxildir. Düşünürəm ki, Rusiya və Türkiyə arasında ikitərəfli dialoqun əsas mövzuları qaz tranzitinin inkişafı və ərzaq məsələləri, o cümlədən taxıl müqaviləsi olacaq. Eləcə də, Türkiyənin üçüncü ölkələrdən Rusiya Federasiyasına malların tranziti üçün mərkəz rolunu oynadığı ticarət-iqtisadi əlaqələr. Bu, Moskva ilə Ankara arasında ticarət dövriyyəsinin artması demək olacaq. Və təbii ki, turizmlə bağlı məsələlər var. Bundan əlavə, biz qarşılıqlı hesablaşmaların daha da sadələşdirilməsini və ödəniş sistemlərinin tanınmasını gözləmək olar.

Ukrayna və Suriya kimi geosiyasi məsələlər bəzən münasibətlərdə gərginlik yarada bilər. Müəyyən vaxtarda gərginlik kifayət qədər arta bilər, lakin ümumilikdə hesab edirəm ki, o, hədsiz eskalasiya olmadan məqbul həddə qalacaq.

***- İndi Qərbin Cənubi Qafqaz vasitəsilə Rusiyaya təzyiqlərini artırmağa çalışdığına dair əlamətlər varmı?***

- Bəli, var. Belə görünür ki, Qərb Cənubi Qafqaz vasitəsilə Rusiyaya təzyiqləri artırmağa, orada müəyyən gərginlik ocaqları yaratmağa çalışır- açıq hərbi əməliyyatlar olmasa da, heç olmasa bunun baş verməə ehtimalının böyüməsi təhlükəsi. Lakin bu cəhdlərin məqsədə çatacağını düşünmürəm. Cənubi Qafqaz və Mərkəzi Asiyadakı Qərb dövlətlərinin də başqa maraqları var, o cümlədən iqtisadi maraqlar və regional qeyri-sabitlik Rusiyadan başqa Qərbin özünün də iqtisadi, xammal maraqlarına zərər verə bilər. Bundan başqa, Qərb anlayır ki, kimlərinsə vəziyyəti qızışdırmağa, regionda sabitliyi pozmağa çalışması Cənubi Qafqaz ölkələrini sevindirməyəcək. Təbii ki, müəyyən cəhdlər var, lakin onlar balanslaşdırılmış və ya idarə olunandır.



Ümumiyyətlə, təbii ki, Qərb Cənubi Qafqaz ölkələrində siyasi, iqtisadi, hərbi təsir imkanlarını artırmağa çalışır. Ancaq başa düşmək lazımdır ki, Qərb son 30 ildə eyni şeyi edir. Yəni bunda yeni heç nə yoxdur. Bu, günəş altında yer və bir parça tort üçün dövlətlərin adi rəqabətidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" çərçivəsində hazırlanıb.






***- İrəvanda KTMT-nin sammiti keçirildi. Sammitin nəticələrini necə qiymətləndirirsiniz?***

- Ermənistan çətin ki, KTMT-dən plansız hərbi yardım alsın. Əvvəllər planlaşdırılmış bəzi tədarüklər həyata keçirilə bilər. Siz başa düşməlisiniz ki, Ermənistan KTMT-nin üzvüdür və müəyyən planlar, iş qrafiki, hərbi-texniki əməkdaşlıq planları var. Bütün bunlar gözləmə rejimində, planlaşdırılmış rejimdə işləyir, amma başqa heç nə yoxdur.

Rusiya isə Azərbaycana qarşı çıxmayacaq, çünki yuxarıda qeyd etdiyim kimi, Moskva Cənubi Qafqazda regionun bütün ölkələri ilə balanslaşdırılmış siyasət yeritməyə çalışır və açıq-aşkar tərəflərdən birinin xeyrinə mövqe tutması bu balanslaşdırma və qarşılıqlı fəaliyyət siyasətinə ziddir..

***- KTMT-nin özünü ləğv etmək təhlükəsi varmı?***

- KTMT-nin özünün buraxılması təhlükəsi yoxdur. Bu barədə danışmaq spekulyativdir və qeyri-sağlam atmosferi istiləşdirmək üçün nəzərdə tutulub. KTMT-nin özünün buraxılması üçün heç bir aşkar səbəb yoxdur. Blok normal işləyir, maliyyə və təşkilati strukturu da var. Biz həmçinin region ölkələrində KTMT-yə üzv ölkələrin xarici siyasətinə köklü şəkildə yenidən baxılmasına səbəb olacaq siyasi dəyişiklikləri müşahidə etmirik.

***Tərcümə - Elçin Bayramlı***

Səs
29 noyabr
2022-ci il

# Bir payız tablosu qarşısında

PUBLİSİSTİK DÜŞÜNCƏLƏR



Bu, cansız bir tablo deyil, evlərimizin divarından da asılmayıb. Onunla hər gün yüzlərlə insanın keçdiyi şəhərimizin küçə, meydanlarında, park və xiyabanlarında qarşılaşırıq. Bu tablonun ”müəllifi” iki aydan artıqdır, yayın geri çəkilib, yerini öz ”əlləri” ilə təhvil verdiyi payızdır. Budur, ağacların ağ saçlara dən düşmüş kimi yaşıldan sarıya çönən yarpaqları hələ də özünü payızın solğun günəşinə təslim etməyib yaşıllığını saxlayan otların üstündə qəribə bir harmoniya yaradıb. Bir azdan xəfif bir külək əsir - payız küləyi. Xəzəl ömrü yaşayan yarparların havada bir rəqsinə bax? Bu külək payızın hələ tam hakim kəsilmədiyi ağaclardan yalnız özünə məxsus olan sarı yarpaqları qoparıb alır qarşısına.

Küçələrdə, səkilərdə bir-biri ilə sanki ”qovala-qaç” oynayır yarpaqlar, biri qaçır, o birilər düşür onun ardınca. Nəhayət, toplaşırlar özlərinə sığınacaq sandıqları bir divarın dibinə, bir ağacın altına. Bu dəfə artıq külək yarpaqları yerindən qopara bilmir, lakin onun təsirindən adamın qulağında bir-birinə toxunan xəzəllərin ”xışıltı” adlı nəğməsi səslənir. Gözlərin önündə, həqiqətən də, baxmaqla doyulmayan bir tablo var - payız tablosu. Səhərdən bəri şəhərimizdəki parklardan birində qarşısında dayandığım bu canlı tablonu daha bir qədər də seyr etmək üçün skamyalardan birində əyləşirəm.

Bir-birini əvəz edən mənzərələr məni xəyalən iki il əvvələ aparır- 44 günlük o payıza- Qarabağda Zəfər qazandığımız o payıza 30 il Qarabağa kabus kimi çökən, baharın gəlməsini əngəlləyən o payıza İşğal altında olan baharsız torpaqlarımızın payızına Axı bu torpaqlar qovmuşdular baharı da, yayı da. Onlar bir qışla, bir də ki, payızla qəm ortağı, kədər yoldaşı olmuşdular. Azad olunanadək günəşsiz qalacaqlarına, baharın allı-güllü yaylığını başlarına salmayacaqlarına söz vermişdilər.

Beləliklə də bu torpaqlara bir payız, bir də qış hakim olmuşdu. Günəşsiz payız, soyuq, sazaq, saralmış yarpaqlar, bir də ağappaq qar

Qarabağ doğmasının ayaqlarını sinəsində duyanda baharı çağıracaqdı, çəməninə-düzünə al-əlvan güllərini səpələyəcəkdi. Başından qara örpəyini çıxarıb, al rənglisini taxacaqdı.

2020-nin 44 günü- 44 günlük payızı, 30 illik bu yurdlara hakim payız özü öz əllərilə gətirdi baharı bu ellərə. Bir qərinəyə yaxın hökmranlığım ta bəsdi, dedi. Çəkildi bir kənara, yerini verdi o soyuqda, o sazaqda allı-güllü bahara. Minlərlə oğlumuzun-igid, qəhrəman övladlarımızın gəlişi ilə Qarabağa günəş doğdu. Torpaq, yurd-yuva, el-oba üçün axan qanlar çəmənlərin-düzlərin al-əlvan güllərinə, çiçəyinə döndü. Üçrəngli bayrağımız azad edilən yurdların başı üstündə dalğalandıqca, bu ellərə nəfəs gəldi, yaşamaq həvəsi gəldi.

Payız payızlığını göstərdi. Xəzəli ilə bircə anlıq yuxusunda əsgərimin başının altına yastıq, üstünə yorğan oldu. Özünü tutdu saxladı, yağışların çox yağdırmadı. Palçıq olar, əsgərimə əsgəl olar deyə Əksinə bir kənara çəkilərək baharı səslədi. Lakin bahar vaxtı olmadığından əsgərim üşüdü də, dondu da, lakin bir addım da çəkilmədi. Ruhundakı baharla-günəşlə payızı-onun sazağını dəf etdi. İrəliyə-irəliyə gedərək torpaqları yağıdan bir-bir azad etdi.

Payız ana oldu 44 gündə- Payız ana. Torpaq üçün canlarından keçərək şəhid olan övladları anasından əvvəl payız aldı qucağına. Oxşadı, öpdü üz-gözündən, göz yaşını leysan edib axıtdı üzlərinə. Minlərlə şəhidimə bayatı qoşdu, minlərlə qazimi qoynuna aldı, gizlətdi, ölməyə qoymadı. Payız fəsillər fəsli oldu 44 gündə. 30 ilin işğalının sonu oldu Qarabağda. Elə o ildən də payız fəsillərin tacı oldu. Şəhidimizin şahidi kimi, Zəfərimizin də şahidi oldu.

Küçələrlə heç bir maneə rəqslərinə, qaçışmalarına xələl gətirməyən yarpaqların xışıltısı, bir də toran vaxtı olduğu üçün küçə işıqlarının bərq vurması ilə xəyallardan ayrılır, ətrafa nəzər salıram. Daha valehedici mənzərələrlə qarşılaşıram: işıq şüaları üzərinə düşən yarpaqların parıltısı, qızılı-sarı yarpaqların skamyaların üzərindəki gözəl xalı görüntüsü, yanımdan dəstə-dəstə ötən insanların payızın xoş mənzərələrini bir-birilərinə göstərərək onu körpə bir uşaq kimi oxşamaları... Bir qədər aralıda qoca, cavan, uşaq- bir xeyli adamın bu təmiz havanı ciyərlərinə çəkmək üçün gəzişdikləri və addımların xəzəlin yeni bir ”nəğməsini” yaratdığını..

Qalxıram Sıx ağacların cərgəsi önündə addımlayıram. Payızın bir yeni nəğməsini dinləyə-dinləyə addımlayıram. Bu nəğmə payızın qürur nəğməsidir. Payız fəxr edir Qarabağ qələbəsi ilə, o qələbəyə şahidlik etməsi ilə. O qələbənin onun qoynunda qazanılması ilə Dinlədiyim nəğmədə bütün bunlar həzin-həzin misralanıb, bəndləşib, gözəl, könülləri oxşayan, qəlblərə qürur, sevinc dolduran bir nəğməyə çevrilib. Bu nəğmə payızın tablosu qarşısında onun füsnunu bir qədər də gözəlləşdirir. Baxdıqca doyulmaz, gözləri, könülləri oxşayan edir: Zəfər fəslini, qürur fəslini, rənglərin harmoniyası ilə özü öz rəsmini çəkən payız fəslini

***Mətanət Məmmədova***

## Gündə bir alma ye, həkimə üz tutma!

Azı bir milyard insanın gündəlik qida rasionuna daxil olan alma çoxumuzun sevimli meyvəsidir. Alma supermeyvə kimi öz reputasiyasını doğruldur. Belə ki, amerikalı tədqiqatçılar (Montana Dövlət Universiteti) almanın insan bağırsağı üçün şübhəsiz faydalarını əsaslandırıblar. Belə ki, bu meyvənin otoimmün xəstəliklərdə, xoralarda və kolitdə həzm sistemində iltihaba səbəb olan patogenləri boğduğu sübut edilib. Alma digər meyvələrdən daha yaxşı bədəni kolon (yoğun bağırsaq) xərçəngindən qoruyur.

Heyvanlar üzərində aparılan tədqiqatlar göstərib ki, almanın tərkibində bağırsaqlarda iltihaba səbəb olan hüceyrələrin fəaliyyətini dayandıra bilən antioksidant



polifenollar var. Əslində, polşalı tədqiqatçılar artıq 592 xərçəng xəstəsi və 765 sağlam insanı əhatə edən böyük təcrübə aparıblar. Təcrübə göstərib ki, bir insan gündə bir alma yeyərsə, bağırsaq xərçənginə tutulma ehtimalı əhəmiyyətli dərəcədə azalır.

Alimlər almanın belə xüsusiyyətlərini bu meyvələrin tərkibində çoxlu miqdarda flavonoidlərin - heterosiklik oksigen tərkibli birləşmələrin olması ilə izah edirlər. Onlar antioksidant kimi fəaliyyət göstərir, sərbəst radikalların təsirindən qoruyaraq bununla da şiş hüceyrələrinin əmələ gəlməsinin və çoxalmasının qarşısını alır.

## Kamerun - Serbiya matçında 6 qol



Qətərdə keçirilən futbol üzrə dünya çempionatı davam edir. Belə ki, mundialın G qrupunun ikinci turu çərçivəsində dünən Kamerun və Serbiya milli komandaları üz-üzə gəliblər. Qarşılıqlı hücumlar şəraitində keçən oyunda 3:3 hesablı heç-heçə qeydə alınıb. Kamerun yığmasının heyətində Erik Maksim Şupo-Motinq, Vensan Abubakar, Jan-Şarl Kastelletto fərqləniblər. Rəqib komandanın qollarını isə Aleksandar Mitroviç, Sergey Milinkoviç-Saviç və Straxinya Pavloviç vurublar.

## Evlərdən pul və qızıl oğurlayan keçmiş məhkum tutulub

Sabunçu rayonunda iki evdən, bir həyətyanı sahədən və 1 mağazadan 4450 manat pul, qızıl əşyaları, məişət avadanlıqları və 800 manat dəyərində tütün məmulatlarının qeyri-aşkar şəraitdə talanması ilə bağlı polisə məlumat daxil olub.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayon polis idarəsinin 14-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməllərində şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər oğurluğa görə məhkum olunmuş Sahil Mahmudov saxlanılıb. Faktla bağlı rayon polis idarəsi tərəfindən araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**